

## Əhalinin 84.7%-i İlham Əliyevə tam etibar edir - Sorğu

*Azərbaycan əhalisinin 84.7%-i Prezident İlham Əliyevə tam etibar etdiyini bildirib.*
*"Unikal" xəbər verir ki, bunu Sosial Tədqiqatlar Mərkəzinin (STM) 2022-ci ilin may-avqust aylarında keçirdiyi rəy sorğusunun nəticələri göstərir. Sorğunun nəticələrinə əsasən respondentlərin 84.7%-i Prezidentə tam etibar etdiyini, 10.6%-i əsasən etibar etdiyini bildirib.*

Səh.2



## Dövlət Məşğulluq Agentliyinə ağır ittihamlar


# UNİKAL

№43 (2128) 18 noyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru


Səh.9



## Azərbaycana qarşı yeni təhdidlər: Gücümüzün artması həzm olunmur

## Mustafa Abbasbəylinin rəhbərlik etdiyi qurum ətrafında narazılıqlar səngimir

*Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) ilə bağlı narazılıqlar yenidən güclənib. Həm KİV-də bu qurumun fəaliyyəti ilə bağlı sadə vətəndaşların şikayət xarakterli məlumatları çoxalıb, həm də mütəxəssislər tərəfindən Agentliyin iş prinsipləri ilə bağlı tənqidlər intensivləşib. İş o yerə çatıb ki, Mustafa Abbasbəylinin rəhbərlik etdiyi DMA millət vəkillərinin də sərt tənqidləri, ağır ittihamları ilə üzləşməkdədir. Məsələn, bu günlərdə deputat Razi Nurullayev yerli KİV-ə açıqlamasında deyib ki, Dövlət Məşğulluq Agentliyinin xidmətindən o da narazıdır:*

Səh.8

## "Azərbaycanın sanksiyalarla, təzyiqlərlə üzləşməsini istəyirlər ki, torpağı versin"



*Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi qətnamənin məqsədlərindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasının səbəblərindən, İranın Azərbaycana qarşı...*

Səh.4

## Emin Əmrullayev üçün 4,4 milyard manatlıq son şans...



*2023-cü ilin dövlət büdcəsində təhsil xərcləri 4 milyard 423 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da cari ilə nisbətən 537 milyon manat və ya 13,8 faiz, 2021-ci ilin icra göstəricilərinə nisbətən isə 1 milyard 331 milyon manat və ya 43 faiz çox deməkdir. Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.*

Səh.6

## "Elə ailə var ki, kömək edən olmasa, acından ölər" - Razi Nurullayev



*"Ünvanlı dövlət sosial yardımı üçün əmək haqqı barədə arayış tələb edilir. Elə ailə var ki, kömək edən olmasa acından ölər. O necə və hansı yolla arayış gətirsin? Büdcədə bu məqsəd üçün nəzərdə tutulan vəsaitlərin həmin insanlara çatacağı ciddi şübhə altındadır".*

Səh.7

# Azərbaycanlı müğənnilərin əl yandıran toy qiymətləri 15000-20000 AZN



***Yerli məşhurların şəxsi həyatı, lüks malikanələri, bahalı avtomobilləri qədər toy qiymətləri də daim müzakirə edilən mövzulardandır. Övladının şad günündə müğənniləri görmək istəyənlər isə bunun üçün ətək-ətək pul ödəməlidirlər desək, yanılmarıq.***

“Unikal” baku.ws-ə istinadən bildirir ki, bu dəfə məşhurların toy qonorarlarının nə qədər olduğunu araşdırdıq. Məlum oldu ki, yarım saatlıq çıxış üçün qiymət bütöv toy qiymətindən ən azı 3 dəfə az olur. Yarım saatlıq ifaya 4-5 mahnı daxildir. Toyu əvvəldən sona kimi idarə edən müğənnilər ansambl, aparıcı, rəqs qrupu və ümumi şou-proqramın xərclərini də xidmət haqqına əlavə edir. Bu səbəblə də sənətçilər bütöv toy idarəsi üçün yüksək məbləğdə pul tələb edirlər.

Tanınmış müğənnilərin toy qiymətlərini təqdim edirik:

Xalq artisti Brilliant Dadaşova toyda yarım saata 6000 AZN qonorar əldə edir. Məclisdə ansamblla çıxış edərsə, sənətçinin alacağı məbləğ 15000 AZN-ə qədər yüksəlir.

Xalq artistləri Aygün Kazımova, Röya Ayxan və Miri Yusif toyda yarım saata 8000 AZN qazanırlar.

Xalq artisti Faiq Ağayev məclisdə yarım saatı 4000 AZN-ə, bütöv toyu isə 8000 AZN-ə oxuyur.

Xalq artisti Tünzalə Ağayeva toydan yarım saata 4000 AZN qonorar əldə edir.

Xalq artisti Zülfiyyə Xanbabayeva məclisdə yarım saatı 4500-5000 AZN-ə çıxış edir.

Əməkdar artist Elton Hüseynəliyev toydan yarım saata 4000 AZN qonorar əldə edir. Məclisdə ansamblla çıxış edərsə, 12000 AZN qazanır.

Əməkdar artist Abbas Bağırov məclisdə ansamblla birgə 20000 AZN-ə çıxış edir.

Əməkdar artist Könül Kərimova toyda yarım saatı 3000 AZN-ə, ansambl ilə 8000 AZN-ə oxuyur.

Əməkdar artist Xumar Qədimova toyda yarım saatı 4000 AZN-ə çıxış edir.

Əməkdar artist Manana Caparidze məclisdə yarım saata 4500 AZN qonorar əldə edir.

Müğənni Xatirə İslam toyda yarım saatı 3500 AZN-ə çıxış edir. Bütün toyu isə 10000 AZN-ə oxuyur.

Meyxanaçı Namiq Qaraçuxurlu məclisdən yarım saata 3000 AZN qazanır.

Müğənni Nadir Qafarzadə toyda yarım saatı 4000 AZN-ə oxuyur.

Müğənni Günay İbrahimli və Sevda Yahyayeva məclisdə yarım saatı 3000 AZN-ə çıxış edirlər.

Müğənni Rüfət Axundov toyda bir saatı 2000 AZN-ə, bütün toyu 4000 AZN-ə oxuyur.



# Xatirə əməliyyatının səbəbini açıqladı

***Xəbər verdiyimiz kimi, müğənni Xatirə İslam yenidən əməliyyat etdirib.***

Sənətçi bıçaq altına yatmasının səbəbini açıqlayıb. O bildirib ki, heç bir estetik müdaxilə etdirməyib:

”Əməliyyatımda bədənşəkilləndirmədən söhbət belə gedə bilməz. Bir çox qadınlarda olduğu kimi, süd vəzi problemimi həll etdik. Limfalarımda olan kistaların götürülməsi məsləhət görüldü. Hər şey yaxşıdır və artıq evdəyəm”.

Xatirə bildirib ki, Milli Ongologiya Mərkəzindən həkimlər dəvət edilib və əməliyyatı onlar icra edib.

# Zaur Sevdadan küsüb: "Elə bil uşağam"



***”Heç kimin toyuna getmirəm, oynamıram. Getdim Sevdanın toyuna, müsahibə götürdüm. Elə bil uşağam. Mən əvvəlki Zaur deyiləm, 50 yaşım var”.***

Bu sözləri aparıcı Zaur Kamal ”Həmin Zaur” proqramında deyib. O, müğənni Sevda Yahyayevadan incidiyini söyləyib. Zaur bildirib ki, buna səbəb Sevdanın ailə qurduqdan sonra münasibətinin dəyişməsi olub: ”Toyunda necə iştirak etdim... Əvvəl zəng edirdi, dərtləşirdi. İndi soyuq münasibət göstərir. Yahyayeva...”.

Qeyd edək ki, Sevda ötən il həkim-genetik Zakir Bayramovla ailə qurub.

# Rəşad Dağlının adı ilə gündəmə gəlmək istəyənlər kimlərdir?

***Meyxanaçı Rəşad Dağlı həbs olunduqdan sonra bir çox sənət adamı onunla bağlı paylaşımlarla gündəmə gəldi. Məsələ ilə bağlı ən çox diqqət çəkməyə çalışanlardan biri isə Aqşin Fateh olub. Belə ki, Aqşin TikTok hesabında Rəşadla bağlı müxtəlif videolar yayımlayıb, açıqlamalar verib.***



Axşam.az xəbər verir ki, sənətçi bu dəfə Dağlının ailəsi üçün toplanan yardımdan bəhs edib. O bildirib ki, ailəsi yardım məsələsinə etiraz edib: ”Rəşadın ailəsi dostlarımızdan birinə zəng edib ki, heç nəyə ehtiyacımız yoxdur. Nə zaman dəstək lazım olarsa, dostlar ətrafınızdadır. Çox adam zəng edir ki, pul yığıb göndərmək istəyirik. Bəziləri də var ki, deyir, mən də göndərəcəyəm, adım çəkilsin. O qədər xəstə uşaqlar, qazilər var ki, ehtiyacı olur. Bir Allahdan, bir ailəsindən başqa heç kimin onlardan xəbəri yoxdur. Kim gündəmdədir, reklam olunur onlara yardım etmək istəyirlər. İstəyirlər onların adı ilə özlərini gündəmə gətirsinlər. Rəşad tanınmış insandır, yardım edəni çox olacaq. İki daşın arasında gündəmə gəlmək, özünü tanıtdırmaq yaxşı deyil”.

Aqşin daha sonra media nümayəndələrinə söz atıb.

Xatırladaq ki, yardım məsələsi ilə bağlı paylaşım edənlərdən biri də Aqşin olub. O, Gürcüstanda yaşayan azərbaycanlıların Rəşada 10 min dollar göndərəcəyini yayımlamışdı.



## Deputat AZAL-ı tənqid etdi

***"Azərbaycan vətəndaşının xaricə çıxışının yeganə nəqliyyat vasitəsi olan AZAL-ın biletlərinin qiymət i nəinki inhisarçı şirkətin vətəndaşlara ağır maliyyə yükü dür, eləcə də Hesablama Palatasının apardığı son auditdən göründüyü kimi, şirkətin borcu dövlətin iqtisadi təhlükəsizliyini təhdid edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc deyib.

Komitə sədri bildirib ki, müasir hava limanı, son sinif təyyarələr, yanacaq və təchizatı hökumət tərəfindən təmin olunan kompaniyanın vəziyyətinə diqqət yetirin: "Auditdən sitat gətirmək istərdim. COVİD-19 bağlı dövlətin göstərdiyi yardımın 35,3 milyon manatı əvvəlki illərin öhdəlikləri, kapital qoyuluşları, qeyri-kommersiya xarakterli, lüzumsuz ödənişlər və cərimələr, qabaqcadan təsdiqlənən bölgüyə aid olmayan istiqamətlərə xərclənib. Bank kreditləri və digər borclanmalar 2022-ci il yanvarın 1-nə 2,1 milyard təşkil edir və nəinki likvidliyə, eləcə də dövlət büdcəsinə əsaslı təhdiddir. Beləliklə, alternativ beynəlxalq uçuşlar həyata keçirən şirkətlərin olmadığı bir məkanda vətəndaş təkcə bir istiqamətə - Türkiyəyə gürcü və ermənilərdən 3 dəfə baha uçur. Ona görə də Füzuli, Zəngilan və gələcək Laçın hava limanlarının idarəçiliyini AZAL-a vermək olmaz. Azad torpaqlarda hava limanları təkcə mülki deyil, həm də hərbi və təhlükəsizlik əhəmiyyəti daşıdığı üçün AZAL kompaniyasının hazırki idarəçilik modeli dəyişməlidir".

*Anar*

## Hökumət dərman problemi ilə bağlı proqram hazırlayır

***2023-cü ilin dövlət büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsidir.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin bu gün keçirilən plenar iclasında deyib.

Onun sözlərinə görə, dövlət büdcəsində səhiyyə xəclərində də xeyli artım nəzərdə tutulub.

"Səhiyyə Komitəsində qaldırdığımız xəstəxanalarda avadanlıqların köhnəlməsi məsələsi artıq öz həllini artıq tapır, avadanlıqlar yeniləri ilə əvəzlənir. Bunun üçün Baş nazir Əli Əsədova təşəkkür edirik. Digər məsələ isə ölkədə dərman məhsulları ilə bağlı problemlərdir. Məndə olan məlumata görə, hökumətdə dərman məhsulları ilə bağlı proqram hazırlanır. Bu proqram əsasında dərman vasitələri üzrə problemlər öz həllini tapacaq. Təklif edirəm ki, bu proqrama Milli Məclisin peşəkar deputatları da cəlb edilsin", - deyə komitə sədri vurğulayıb.

# Dövlət Məşğulluq Agentliyinə ağır ittihamlar

## Mustafa Abbasbəylinin rəhbərlik etdiyi qurum ətrafında narazılıqlar səngimir

***Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) ilə bağlı narazılıqlar yenidən güclənib. Həm KİV-də bu qurumun fəaliyyəti ilə bağlı sadə vətəndaşların şikayət xarakterli məlumatları çoxalıb, həm də mütəxəssislər tərəfindən Agentliyin iş prinsipləri ilə bağlı tənqidlər intensivləşib.***

İş o yerə çatıb ki, Mustafa Abbasbəylinin rəhbərlik etdiyi DMA millət vəkillərinin də sərt tənqidləri, ağır ittihamları ilə üzləşməkdədir. Məsələn, bu günlərdə deputat Razi Nurullayev yerli KİV-ə açıqlamasında deyib ki, Dövlət Məşğulluq Agentliyinin xidmətindən o da narazıdır: "Mənə ünvanlanan məktubların xeyli hissəsi məşğulluqla bağlı olub. Bu günə qədər Məşğulluq Agentliyindən razı qalan vətəndaşa hələ rast gəlməmişəm. Çətin ki, gələk. Məşğulluq Agentliyinin fəaliyyətində ciddi dönüşə nail olmaq lazımdır. Yanaşmalar doğru deyil, Qanunvericilik səviyyəsində də müəyyən boşluqlar var. Bu boşluqların doldurulması üçün bir neçə dəfə təkliflə çıxış etmişəm. Bu yaxınlarda təkliflərimi yenə səsləndirəcəyəm. Məşğulluq Agentliyi, ümumiyyətlə, qarşısına qoyulan vəzifəni həyata keçirə bilmədi. Bu Agentliyin yaradılmasında məqsəd vətəndaşların işlə təmin olunması, ehtiyaclarının ödənilməsi, məşğulluqlarını yaratmaları idi. Həqiqətən bunun çərçivəsində xeyli addımlar atıldı. İnsanlara mal-heyvan paylanıldı, müəyyən avadanlıqlar verildi, məşğulluq üçün şərait yaradıldı. Amma bütün bunların 100-dən 90-ı özünü doğrultmur".

Milli Məclis üzvünün sözlərinə görə, heyvanı alan aparıb satır, sonra adını qoyur ki, mənə xəstə heyvan verilmişdi. "Məsələ xəstə heyvanda deyil. Müəyyən yerlərdə vətəndaşa xəstə heyvan verilə bilər. Bunları istisna etmirəm. Amma bəziləri mal-heyvanı alır, səhəri günü bazara çıxarırlar. Bəzən elə olur ki, vətəndaş Agentlikdən mal, qoyun tələb edir. Axı bu, Agentliyin günahı deyil. Vətəndaş heyvanı alıb, satmaq istəyir, heç onun mal, qoyun saxlamaq fikri də yoxdur. Lakin elə insanlar var ki, onlar doğrudan da heyvan saxlamaq istəyirlər, amma Agentlikdən bunu ala bilmirlər. Təzadlı məqamlar çoxdur. Bunun hansısa yolunu tapıb, vətəndaşlara xidmət göstərmək lazımdır", - deputat bildirmişdi.

Milli Məclis üzvü onu da vurğulamışdı ki, hazırda Dövlət Məşğulluq Agentliyində göstərilən xidmətlərin səmərəliliyi yoxdur. Sitat: "İnsanlar buna dövlətin yardımı kimi baxır, üç-dörd ay sonra özünüməşğulluq yoxa çıxır. Kifayət qədər insan tanıyıram ki, özünüməşğulluqla məşğul olmaq istəyir. Lakin bunun üçün lazım olan avadanlıqları ala bilmirlər. Kim səs-küy salır, onlara verilir. Məsələn, hansısa şəhid ailəsinə, qazilərə verilir. Mən onları qınamıram. Amma eləsi var, on qoyunu aparıb otarmaq da istəmir axı. Bir aydan sonra deyir "aparıb satım, pula çevirim". Yəni ona görə də xidmətin səmərəliliyi yoxdur. Xeyli addım atılmalı, müzakirə olunmalıdır ki, xidmətin səmərəliliyi artırılsın".

Deputat, həmçinin, demişdi ki, vətəndaşların işlə təmin olunmasında da problem var: "Dövlət Məşğulluq Agentliyi insanları iş yerlərinə göndərir, vətəndaş gedib görür ki, iki aydır, artıq həmin iş yeri tutulub. Agentlik isə qeydə alır ki, guya filankəs işlə təmin olundu. Agentliyin verdiyi "1000 nəfər işə düzəlib" statistikasının 900 nəfəri yalandır. Onlar işlə təmin olunmayıblar, sadəcə, adlarının qarşısına işarə qoyublar ki, guya təmin olundu".

Göründüyü kimi, Milli Məclis üzvünün DMA-ya ittihamları xeyli ciddi və ağırdır, ən maraqlısı isə odur ki Agentlik bir deputat tərəfindən dilə gətirilən, üstəlik, kifayət qədər kəskin, şokedici iddialar, ittihamlar qarşısında susqunluq nümayiş etdirir. Qurumdan deputatın dediklərinə bircə kəlmə ilə də münasibət bildirilməyib. Görünür, müdriklər susmağı boş yerə razılıq əlaməti adlandırmayıblar...



Bir daha vurğulayaq ki, son illər ölkə mediasının, həm də haqlı olaraq əsas tənqid hədəflərindən biri Dövlət Məşğulluq Agentliyidir. Bu qurum üzərinə düşən vəzifələri yerinə yetirməkdə, ən azından layiqincə yerinə yetirməkdə çətinlik çəkir. Elə ona görə də təkcə medianın yox, həm də ictimaiyyətin qınaqları ilə üzləşib.

Mustafa Abbasbəylinin 2020-ci ildə Agentliyə rəhbər təyinatından sonra gözləntilər o yöndə idi ki, adıçəkilən qurum öz fəaliyyətində müsbətə doğru ciddi dəyişikliklər edəcək. Lakin təəssüf ki, sözügedən təyinatın üzərindən 2 ildən çox vaxt keçməsinə baxmayaraq həmin dəyişiklikləri müşahidə etmirik.

Üstəlik, son vaxtlar bu qurumun sabiq vəzifəli şəxslərinin xoşagəlməz əməlləri barədə xəbərlərin ardı-arası kəsilmir. Uzağa getməyək, elə ötən il Agentliyin iki yerli mərkəzində - Mingəçevir və Lənkəran şəhər Məşğulluq Mərkəzlərində korrupsiya əməlləri aşkarlandı. Söhbət qurumda işsiz kimi qeydiyyata alınmış şəxslərə verilməsi üçün nəzərdə tutulan məhsulların alınması ilə bağlı heç bir tender və kotirovka keçirilmədən müvafiq rəsmi sənədlərin saxtalaşdırılmasından, nəticədə işsiz vətəndaş üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin mühüm qisminin mənimsənilməsindən, israf edilməsindən gedirdi.

Deputat Razi Nurullayevin söylədiklərindən belə aydınlaşır ki, nə DMA-da yeni rəhbər təyinatı, nə də aşkarlanan korrupsiya faktları, açılan cinayət işləri bu qurumun fəaliyyətində müsbətə doğru ciddi dönüş yaradıb. Belədə sual yaranır: bəs nə etməli?!

Görünür, həmin sualın cavabını yenə hüquq-mühafizə orqanları tapmalı olacaq...

*Sənan Mirzə*

# Azərbaycana qarşı yeni təhdidlər: Gücümüzün artması həzm olunmur

***Xəbər verildiyi kimi, Fransa Senatı Azərbaycana qarşı sanksiyaların tətbiqi ilə bağlı qətnamə qəbul edib. Sənəddə Azərbaycandan qaz və neft tədarükünə embarqonun tətbiqi imkanlarına baxılması təklif edilir. Bundan əlavə, qətnamə layihəsində milyonlarla azərbaycanlının 30 illik işğal ərzində fundamental insan hüquqlarından məhrum olunduqları, müharibə cinayətlərinə məruz qaldıqları və digər faktların nəzərə alınmadığına, Azərbaycana isə təcavüzkar rolu ayrıldığına diqqət cəlb edilib.***

Onu da qeyd edək ki, son dövrlər Rusiyadan, İrandan Azərbaycana yönəlik təxribat xarakterli davranışlar sərgilənməkdədir. Azərbaycan tərəfi hər iki ölkəyə beynəlxalq hüquq, qonşuluq münasibətlərinə sığmayan davranışlarına adekvat cavab verib. Belə bir məqamda Fransa Senatının məlum qətnaməsi ölkəmizə qarşı yönələn təhdidlərdən biri kimi dəyərləndirilə bilər.

Milli Məclisin Komitə sədri Musa Quliyev bildirib ki, Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi son dərəcə riyakar, qərəzli, əsassız, ermeniyanlı qətnaməsi hər bir azərbaycanlıda hiddət, nifrət doğurur. Onun qənaətincə, həqiqətən də, bu günlərdə Fransa dövlətinə də, Senatına da, Makrona da, senatdakı makronoidlərə də qəzəb və nifrət bildirməkdə haqlıyıq: "Çünki onların Senatda qəbul etdikləri qətnamə siyasi sənəd deyil, müstəqil dövlət olan Azərbaycana hədədir, hərbə- zorba gəlməkdir. Qətnaməni oxuduqca dəhşətə gəlirsən: budurmu qərb hüququ, qərb demokratiyası, qərb ədaləti, qərbin müstəqil bir dövlətin suverenliyinə hörməti? Fransanın erməni yançısı olduğu təzə bir şey deyil və bu qədim peşəsi ilə öyünən tör- töküntü toplumu da fransızların özlərinə kiçik bacı kimi qəbul etmələri heç kimi narahat etmir. Amma , ey Fransa, ey Ermənistan, siyasi və mənəvi əxlaqsızlıqlarınızı istəyirsiniz birgə, istəyirsiniz ayrı- ayrılıqda edin, bu öz işinizdir, amma çirkin oyunlarınızı bizdən aralıda oynayın. Qətnamədə fransız senatorlarının Avropa İttifaqına və digər birliklərə Azərbaycana qarşı iqtisadi, siyasi, mənəvi embarqo qoymaq çağırışlarının sadə dilə tərcüməsi "yeni səlib yürüşü" anlamından başqa bir şey deyildir".

Millət vəkili bildirib ki, qətnamədəki digər absurd müddəa Azərbaycanın Ermənistanın işğal etdiyi ərazilərindən çıxmasını və Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin bərpasını tələb etmələridir: "Ya bunların dünyadan xəbərləri yoxdur, eləcə erməni lobbisinin hazırladıqları cızma- qaranı qətnamə adı ilə qəbul ediblər, ya da özlərini axmaq yerinə qoyublar. Senatdakı müsyö və madamlar, Azərbaycanla Ermənistan arasında beynəlxalq səviyyədə tanınmış sərhəd yoxdur axı? Ermənilər 30 il ərzində bizim torpaqları işğal altında saxlayıb, biz Ermənistanın ərazisini işğal etməmişik. Və bizim elə ən çox istədiyimiz də Ermənistanla sərhədlərin delimitasiya edilməsidir. Qoymursunuz axı. Fransız parlamentarilər "Dağlıq Qarabağ" da yaşayan ermənilərin təhlükəsizliyinin qorunması və müstəqilliyinin tanınmasını gündəmə gətirirlər. "Dağlıq Qarabağ" deyilən bir inzibati ərazi yoxdur, çoxdan ləğv edilib.



10 noyabr 2020- ci il tarixli 3 tərəfli bəyanata görə 2025-ci ilə qədər Qarabağda yaşayan erməni vətəndaşların təhlükəsizliyi rus sülhməramlıları tərəfindən həyata keçiriləcəkdir və keçirilir. Digər tərəfdən kim deyir ki, dinc erməni əhaliyə azərbaycanlılar tərəfindən təhlükə var? Belə bir təhlükə yoxdur və ola da bilməz. Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, erməni vətəndaşlar da Azərbaycanın digər vətəndaşları kimi eyni hüquqlara malikdirlər, onların təhlükəsizliyi, azadlığı və hüquqları Azərbaycanın qanunları ilə təmin ediləcəkdir. O ki, qaldı müstəqilliyin tanınması məsələsinə, bu da absurd bir şeydir, hətta 30 illik işğal dövründə buna cəsarət etməyən Ermənistan və Fransa qalib Azərbaycana qarşı heç bir qələt edə bilməzlər".

Musa Quliyev hesab edir ki, Fransanın qəbul etdiyi bu riyakar və bədnam qətnamənin növbəti və bəlkə də ən əsas səbəbi sualtı daşlarla bağlıdır: "Bu səbəb getdikcə güclənən və ciddi şəkildə təşkilatlanaraq nüfuz dairəsinə çevrilən Türk Dövlətləri Təşkilatıdır. İranın da son vaxtlar bölgədə banlamağının səbəbi məhz budur! Hərçənd ki, İranda yaxşı bilirlər ki, müsəlman inancına görə vaxtsız banlayan xoruzu erkən də kəsirlər. Fransa erməni qətnaməsi oyununu ortaya atmaqla bölgədə gərginlik yaratmaq, Rusiyanın və Avropa İttifaqının vasitəçiliyi ilə ləng getsə də, pozitiv inkişaf edən davamlı sülh danışıqlarını ləngitmək, İpək Yolu layihəsi və Orta Asiyanın türk dövlətləri üçün bölgəni maraqsız və hətta problemli bir əraziyə çevirməkdir".

Müsavat Partiyasının başqanı Arif Hacılı isə hesab edir ki, Fransa senatının Azərbaycana qarşı qəbul etdiyi qətnamənin hüquqi əsası yoxdur. Onun fikrincə, bu sənəd tövsiyə xarakteri daşıyır, amma bu qətnamə Azərbaycan və region üçün təsirsiz ötüşəcək bir sənəd, bəzilərinin iddia etdiyi kimi kağız parçası deyil: "Fransa senatının qətnaməsi Azərbaycan-Ermənistan münaqişəsinin aradan qaldırılmasına yox, daha da kəskinləşməsinə yol açır. Rusiyaya həm Azərbaycanın Qarabağ bölgəsində, həm də Ermənistanda öz hərbi qüvvələrini daha uzun müddət saxlamaq üçün əlavə arqument verir. Fransanın Qarabağ nizamlanması prosesində vasitəçilik missiyasının legitimliyini heçə endirir. Nəticə çıxarılacaq başqa məqamlar da var. Bu qətnamənin yekdilliklə (yalnız 1 senator əleyhinə səs verib) qəbul edilməsi göstərir ki, azı Avropanın ən təsirli ölkələrindən birində ictimai rəy tam olaraq Azərbaycanın əleyhinədir. Qarabağ problemi mahiyyətcə Krım, Donbas, Tsxinvali, Dnestryanı problemi ilə eyni olsa da, Azərbaycan diplomatiyası, diaspora qurumları bu həqiqəti beynəlxalq ictimai rəyə çatdırmağa nail olmayıb. Qarşı tərəfin bu sahədə manipulyasiyasının qarşısı alınmayıb. Fransa senatının qəbul etdiyi sənəd, ümumiyyətlə bu ölkənin Qarabağ nizamlanması prosesində tutduğu mövqe anti-azərbaycançı qüvvələrin siyasi platformasına çevrilə bilər. Belə cəhdlərin qarşısına "biz heç kimdən qorxmuruq, heç kəs bizi durdura bilməz"-ritorikası ilə deyil, xüsusi hazırlanmış layihələrlə, peşəkar siyasətlə çıxmaq olar. Əslində həlli çətin olan bir məsələ də deyil. Ciddi avantajlarımız var. Tarixi ədalət, beynəlxalq hüquq, və gerçək durum bizim tərəfimizdədir. Yetər ki, bir az vətən sevgisi, bir az peşəkarlıq, bir az da işə məsuliyyətli yanaşma ola".

Ədalət Partiyasının Siyasi Şurası getdikcə gərginləşən İran-Azərbaycan münasibətləri haqda bəyanatla çıxış edib: "Son iki il ərzində yaşanan hadisələr göstərir ki, hərb meydanında məğlub olan və bu məğlubiyyətinin etirafı kimi də üzərinə konkret öhdəliklər götürməklə 10 noyabr 2020-ci ildə Üçtərəfli Atəşkəs Razılaşmasına imza atan Ermənistanın öz öhdəliklərini yerinə yetirməkdən yayınmasında və yenidən revanşist əhval-ruhiyyəyə köklənməsində iki ölkə xüsusi fəallıq göstərir: Fransa və İran. Özünün dövlət siyasətində həmişə açıq-aşkar İslam düşmənçiliyi mövqeyi tutmuş, hətta dəfələrlə mətbuat orqanları vasitəsiylə İslamın əziz Peyğəmbəri Məhəmmədi (s.ə.s.) və digər müqəddəslərimizi aşağılayıb təhqir edən karikatura və yazıların yayımçısına çevrilmiş, tarixən işğalçı və soyqırım törədicisi olmuş Fransanın xristian Ermənistanı dəstəkləməsi Azərbaycan cəmiyyətində o qədər təəccüblə qarşılanmasa da, bizimlə eyni dini məzhəbi, eyni mədəniyyəti bölüşən, 40 milyon soydaşımızın yaşadığı və özünü "İslam Respublikası" elan etmiş qonşu İranın riyakar Fransayla eyni cinahda yer alması, "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir" deməsi və üstəlik, Azərbaycana qarşı təhdid dilində danışması Vətənini sevən hər bir qeyrətli azərbaycanlıda hədsiz dərəcədə təəccüb, təəssüf, eyni zamanda, nifrət və qəzəb hissi yaratmışdır. Azərbaycan insanı onu da yaxşı görür ki, Ermənistan ərazisindən keçəcək "Zəngəzur dəhlizi"nin Üçtərəfli Razılaşmaya əsasən açılması 30 ildir zillət içərisində yaşayan Naxçıvan camaatının həyat şəraitini yaxşılaşdırmaqla yanaşı, ən çox da Türkiyəni, Azərbaycanı, eləcə də Mərkəzi Asiyanın müsəlman respublikalarını gücləndirəcəyi halda, bu dəhlizin işə düşməsindən ən çox narahatlıq keçirən də Ermənistan və Fransa, bir də özünü "İslam Respublikası" sayan İrandır".

Ədalət Partiyası İranın tutduğu bu aşkar pozucu və hər şeydən əvvəl, İslam ehkamlarına, "Quran" ayələrinə zidd mövqeni qətiyyətlə pisləyərək, bunun rəsmi Tehranın qardaşlıq, dostluq və qonşuluq prinsiplərini ayaq altına atması kimi qiymətləndirir, eyni zamanda, cənublu soydaşlarımızı və həqiqi möminləri öz dövlətlərinin bu anti-müsəlman davranışlarına etiraz etməyə, Peyğəmbərimizi dəfələrlə təhqir etdirən Fransayla, minlərlə şəhidin qanını tökmüş işğalçı Ermənistanla eyni cinahda durmaqdan utanmağa və geri çəkilməyə çağırır".

**Z.Məmmədli**

# İlham Əliyevlə Putin arasında telefon danışığı oldu



***Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı oub.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, söhbət zamanı iqtisadiyyat, ticarət və enerji sahələrində Rusiya-Azərbaycan əməkdaşlığı məsələləri müzakirə olunub.

# İlham Əliyev onu SOCAR Müşahidə Şurasının üzvü təyin etdi

***İqtisadiyyat nazirinin müşaviri Anar Axundov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Müşahidə Şurasının üzvü təyin edilib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

# Prezident onu özünə köməkçi təyin etdi



***Xalid Nurəddin oğlu Əhədov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə, Xalid Əhədov Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi təyin edilib.

# İstintaqa cəlb edilən sabiq nazir müavini bu vəzifəsindən də çıxarıldı

***Mədəniyyət nazirinin sabiq birinci müavini Elnur Əliyev "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsin Müşahidə Şurasının üzvləri siyahısından çıxarılıb.***



"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb. Eyni zamanda, Nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Müşahidə Şurasına yeni üzv təyin olunub.

Qeyd edək ki, bir neçə gün öncə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində əməliyyat keçirmişdi. Əməliyyat nəticəsində bir neçə vəzifəli şəxs həbs olunub. Nazir müavini Elnur Əliyev isə istintaqa cəlb edilmişdi. Bundan sonra o, Prezident İlham Əliyevin sərəncamı ilə nazir müavini vəzifəsindən azad edilib.

# Əhalinin 84.7%-i İlham Əliyevə tam etibar edir - Sorğu

***Azərbaycan əhalisinin 84.7%-i Prezident İlham Əliyevə tam etibar etdiyini bildirib.***

"Unikal" xəbər verir ki, bunu Sosial Tədqiqatlar Mərkəzinin (STM) 2022-ci ilin may-avqust aylarında keçirdiyi rəy sorğusunun nəticələri göstərir.

Sorğunun nəticələrinə əsasən respondentlərin 84.7%-i Prezidentə tam etibar etdiyini, 10.6%-i əsasən etibar etdiyini bildirib. Rəyi soruşulanların cəmi 2.9% respondent əsasən etibar etmədiyini, 1.3% respondent heç etibar etmədiyini qeyd edib. Respondentlərin 0.5%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.



I Vitse-prezidentə münasibətdə sorğu iştirakçılarının 75.4%-i tam etibar etdiyini, 15.3%-i əsasən etibar etdiyini bildirib Respondentlərin cəmi 1.6%-i əsasən etibar etmədiyini, 5.5%-i heç etibar etmədiyini qeyd edib. 2.2% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

Sorğuda hakimiyyətin digər qollarına, parlament və məhkəmə təsisatlarına olan ictimai inam və etimad səviyyəsi də öyrənilib. Respondentlərin 31.6%-i Milli Məclisə tam etibar etdiyini, 31.7%-i əsasən etibar etdiyini bəyan edib. Respondentlərin 9.8%-i əsasən etibar etmədiyini, 22.3%-i isə heç etibar etmədiyini bildirib. 4.7% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, sorğu Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarında keçirilib və 1068 respondentin rəyi öyrənilib. Tədqiqat çərçivəsində respondentlərin seçimində təsadüfi seçmənin klaster üsulundan istifadə edilib. Respondentlərin seçimində gender balansı qorunub. Sorğuda əhatə edilmiş respondent sayına (1068 nəfər) əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 3% təşkil edib. Sorğunun hər respondent üzrə orta davametmə müddəti 17 dəqiqə 4 saniyədir. Sahə işi 2022-ci ilin 12 sentyabr- 27 sentyabr tarixlərində icra edilib.

# Gələn ilin büdcəsi birinci oxunuşda qəbul olundu

***Milli Məclisin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, məsələ müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da ölkə tarixinin ən yüksək göstəricisi olmaqla, 2022-ci illə müqayisədə 5,2 faiz, 2021-ci illə müqayisədə isə 16,4 faiz çoxdur.

Layihədə 2023-cü ildə dövlət büdcəsinin xərcləri 33,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 1,0 milyard manat, 2021-ci illə müqayisədə isə 5,9 milyard manat çoxdur.



2023-cü ilin dövlət büdcəsinin gəlirləri kimi xərcləri də ölkə tarixinin ən yüksək göstəricisidir.

# Maaş artacaq xəbəri çıxan kimi qiymətlər də sürətlə artır - Əli Məsimli

***"İnsan kapitalının rəqabət qabiliyyətinin artırılması istiqamətində səylərimizi artırmalıyıq. Bu nöqteyi-nəzərdən Azərbaycanda 2013-cü ildə hazırlanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" yenidən işlənməlidir".***



"Unikal"xəbər verir ki, bu sözləri Milli Məclisin bu gün keçirilən iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri müavini Əli Məsimli deyib.

Deputat bildirib ki, belə addım atılsa, təhsil sahəsində çalışanların maaşı orta aylıq əməkhaqqından yuxarı olacaq.

"Digər tərəfdən, inkişaf etmiş ölkələrdə elmə ayrılan vəsait adambaşına 700 dollardan çox, Azərbaycanda isə 20 dollardan aşağıdır. Hesab edirəm bu istiqamətdə proqram hazırlanmalı, islahatlar çərçivəsində elmə ayrılan vəsait artırılmalıdır. Eyni zamanda, büdcədə sosialyönümlü xərclər əhəmiyyətli dərəcədə artıb. Çox yaxşı bilirik ki, əməkhaqqı, müavinət artacaq xəbəri çıxanın səhəri günü qiymətlər daha sürətlə artır, süni qiymət artımı görürük. Buna görə də büdcədə bu istiqamətə nəzərdə tutulan vəsaitin inflyasiyanı üstələməsi lazımdır. Xüsusilə monopoliyada olan inflyasiyanın yerinə bu artımlar 2023-cü ilin büdcəsində ciddi artım tədbirlərinin həyata keçirilməsi vacibdir", - Ə.Məsimli bildirib.

# Ermənilər Ağdam və Xocalıda təxribata cəhd etdi

***Noyabrın 17-si saat 09:55-dən 14:45-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvlərinin Ağdam və Xocalı rayonları ərazilərində döyüş mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis tədbirləri icra etmələri Ordumuzun bölmələri tərəfindən müşahidə edilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən bildirilib.

Bu kimi fəaliyyətlər Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladıqları üçtərəfli bəyanatın tələblərinin kobud şəkildə pozulmasıdır.

Həyata keçirilən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə Ordumuzun bölmələri tərəfindən zəruri tədbirlər görülüb.



# Ceyhun Bayramov: "Dövlətimizin istiqlal ruhu əbədi olsun"

***Dövlətimizin istiqlal ruhu, birliyi və bərabərliyi sarsılmaz və əbədi olsun!***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tviter hesabında yazıb.

XİN başçısı 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə Azərbaycan xalqını təbrik edib: "Yaşasın müstəqil Azərbaycan!".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# "Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma..." - Prezident İlham Əliyev

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi: Xoş gəlmisiniz, böyük nümayəndə heyəti ilə görüşmək o deməkdir ki, müzakirə olunmalı çox məsələ var.

Dirk Şuebel: Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox təşəkkür edirik. Bizimlə görüşmək üçün vaxt ayırmağınız bizim üçün şərəfdir. Mən qısaca olaraq özümü, həmkarlarımı və nümayəndə heyətini təqdim etməklə başlaya bilərəm. Mənim adım Dirk Şuebeldir. Mən Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə yeni təyin olunmuş xüsusi nümayəndəsiyəm. Lakin bu, Azərbaycana ilk səfərim deyil, ötən illər ərzində əvvəlki vəzifələrdə dəfələrlə burada olmuşam və yenidən burada olduğum üçün şadam. Biz buraya bir neçə üzv dövlətin Şərq Tərəfdaşlığı üzrə xüsusi nümayəndələrindən, səfirlərindən ibarət nümayəndə heyəti ilə gəlmişik.

Bizim hamımız hazırkı vəziyyətdə Şərq Tərəfdaşlığının həyata keçirilməsi, ola bilsin ki, Şərq Tərəfdaşlığının yenilənməsi, müasirləşdirilməsi üçün xüsusi nümayəndə təyin olunmuşuq. Bilirik ki, hazırkı geosiyasi vəziyyətdə yeni ideyalara, yeni stimullara, xüsusi yanaşmalara ehtiyac var, bizim burada olmağımızın bir səbəbi də budur. Bunun Sizin nöqteyi-nəzərinizdən necə göründüyünü dinləmək istəyirik: nəyi daha yaxşı edə bilərik, Azərbaycanla əməkdaşlığımızda xüsusi nələri edə bilərik?

Düşünürəm ki, son bir neçə ildə əməkdaşlıq çox yaxşı inkişaf edib. Biz bir sıra müstəvidə irəliləyirik. Sözsüz ki, enerji sahəsi. Lakin düşünürəm ki, siyasi müstəvidə də biz bir çox səylər göstərmişik. Prezident Mişel çox fəaldır, Siz dəfələrlə görüşmüsünüz və Siz onun, eləcə də bizim hamımızın, Avropa İttifaqının ədalətli vasitəçi olduğunu görmüsünüz. Bilirsiniz ki, bizim gizli gündəliyimiz yoxdur, xüsusi gündəliyimiz yoxdur. Biz sadəcə yaxşı əməkdaşlıq etmək və əməkdaşlığımızı inkişaf etdirmək istəyirik. Bir çox dialoqlar - təhlükəsizlik sahəsində və bir sıra başqa sahələrdə dialoqlar qurulub. Biz daha çox məsələni nəzərdən keçirməyə hazırıq. Lakin sözsüz ki, əsas məsələni, münaqişəni unutmaq istəmirik.

Cənab Prezident, sirr deyil ki, biz Ermənistandan gəlmişik. Ermənistanda olduq. Deməliyəm ki, orada yaxşı danışıqlar apardıq. Düşünürəm ki, Ermənistanda aldığımız əsas mesaj ondan ibarətdir ki, Ermənistan da sülhün əldə olunmasında maraqlıdır. Biz, həmçinin burada da Sizin bunda maraqlı olduğunuzu eşidirik. Ona görə də biz davamlı sülhə öz töhfəmizi verə bilərik ki, bunu birdəfəlik kənara qoyaq, Cənubi Qafqaz regionunun qonşu ölkələrlə birlikdə çiçəklənməsi istiqamətində hərəkət edək. Düşünürəm ki, bizim çatdırmaq istədiyimiz əsas diləyimiz bu olacaq.

İkitərəfli məsələlərə gəlincə, sonuncu məsələ bizim sazişimizdir. İstərdik, Sizdən xahiş edək ki, bunu həyata keçirmək üçün daha bir təkan verək. Bildiyiniz kimi, razılaşdırılası çox məqam qalmayıb. Ona görə də əgər biz ikitərəfli sazişi razılaşdıra bilsək, bu, əlbəttə ki, ikitərəfli əməkdaşlığımızda daha bir mühüm addım olacaq. Ümumilikdə isə biz burada dinləyici qismindəyik. Böyük məmnuniyyətlə Sizin fikirlərinizi, ideyalarınızı dinləyərik. Biz onları müvafiq olaraq paytaxtlarımızda öz rəhbərliklərimizə çatdıracağıq. Ümumilikdə isə biz sadəcə burada olmağa şadıq və bizi qəbul etdiyinizə görə minnətdarıq, cənab Prezident.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, çox sağ olun. İlk növbədə, gəldiyinizə görə təşəkkür edirəm. Mən bu səfəri yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu, gələcəkdə görməli olduğumuz işlərin düzgün



qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın məzmunu olduqca genişdir. Biz müxtəlif sahələrdə - siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımızın səviyyəsindən çox məmnunuq. Əlbəttə, Şərq Tərəfdaşlığına gəldikdə, bu proqramın əvvəlindən Azərbaycan onu güclü şəkildə dəstəklədi və Zirvə görüşləri daxil olmaqla müxtəlif tədbirlərdə fəal iştirak etdi.

Hazırda isə sizinlə razıyam ki, onun müasirləşdirilməsinin və görülən işlərin nəzərdən keçirilməsinin vaxtıdır. Çünki bu proqramın yaradılmasından on ildən çox keçir və Şərq Tərəfdaşlığına üzv ölkələr öz seçimlərini ediblər. Bəziləri Assosiasiya Sazişini imzalayıb, digərləri Avrasiya İqtisadi İttifaqına üzv olub. Azərbaycan yeganə ölkədir ki, heç bir formata qoşulmayıb. İqtisadi göstəricilərimiz, siyasi və iqtisadi sabitlik və əlbəttə ki, ərazilərimizin azad olunması xarici siyasətimizin praqmatizm üzərində qurulduğunu və hədəfə hesablanmış olduğunu nümayiş etdirir. Başlıca hədəf isə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi idi və biz buna iki il əvvəl nail olduq.

Beləliklə, biz Şərq Tərəfdaşlığı ilə bağlı yeni imkanların nədən ibarət olduğunu nəzərdən keçirməliyik. Bizə gəldikdə, biz bu proqramı və bu platformanı üzv ölkələr arasında əməkdaşlıq deyil, Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirmək üçün əlavə imkan hesab edirik. Çünki Şərq Tərəfdaşlığına üzv olan digər beş ölkə ilə bizim fərqli münasibətlərimiz var. Bizə isə Avropa Komissiyası ilə əlavə əməkdaşlıq mexanizminin əldə edilməsi vacib idi. İndi isə sizin də qeyd etdiyiniz kimi, yeni geosiyasi şəraitdə bunu yenidən nəzərdən keçirmək lazımdır.

Bizə gəldikdə, biz, eyni zamanda, Avropa İttifaqına üzv olan dövlətlərlə ikitərəfli əsasda fəal işlədik. Üzv ölkələrin doqquzu ilə biz strateji tərəfdaşlıq haqqında bəyanat, yaxud saziş imzalayıb və ya qəbul etmişik. Bu isə üzv dövlətlərin üçdəbiridir. Hesab edirəm ki, Azərbaycan Şərq Tərəfdaşlığı qrupuna daxil olan nadir ölkədir ki, öz strateji hədəfinə həqiqətən nail olub. Beləliklə, bu, yaxşı platformadır və biz onu Avropa İttifaqı ilə sazişimizin müzakirəsi üçün təməl hesab edirik. Saziş üzərində iş uğurla, lakin ləng gedir. Uğurla gedir ona görə ki, sazişin bəndlərinin 90 faizi razılaşdırılıb. Ləng gedir ona görə ki, orada hər iki tərəfdən siyasi iradə tələb edən və necə deyərlər, ilişib qaldığımız məsələlər var. Azərbaycanda bununla bağlı müəyyən narahatlıqlar var, çünki bizim imzaladığımız və ya imzalamağı planlaşdırdığımız hər hansı saziş bizə və tərəfdaşlarımıza əlavə fayda verməlidir. Biz orta və ya uzunmüddətli perspektivdə iqtisadi çətinliklər yarada biləcək hər hansı bir sənədi imzalaya bilmərik. Yəni, ləngiməyə səbəb olan bəndlər iqtisadiyyat, ticarət və bəzi digərləridir. Mən prosesin sürətləndirilməsi ilə bağlı nümayəndə heyətimizə artıq təlimat vermişəm və hesab edirəm ki, sazişin yekunlaşdırılması üçün fürsət var. Zənnimcə bu, bizim əməkdaşlığımız üçün daha bir mühüm nailiyyət olacaqdır. Biz əlbəttə ki, enerji inkişafı və enerjinin şaxələndirilməsi layihələri haqqında da danışacağıq və müzakirələrin nədən ibarət olduğunu biləcəyik.

Siz Ermənistana səfərinizi və orada Ermənistan rəhbərliyindən sülh mesajı aldığınızı qeyd etdiniz. Biz işğalın davam etdiyi bütün illər ərzində bu mesajları eşitmişik. Lakin onlar səmimi deyildi. Biz də sülh arzulayırdıq, lakin torpaqlarımızı geri istəyirdik. Onlar isə torpaqları geri qaytarmadan sülh istəyirdilər. Fərq bunda idi. Beləliklə, biz münaqişəni güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə həll etməli olduq. Mən bu gün onların sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edirəm. Çünki onlar həqiqətən sülh arzulayırdılarsa, bizim təklifimizə cavab verərdilər. Müharibə başa çatdıqdan dərhal sonra sülh sazişi üzərində danışıqlara başlamağı təklif edən biz olmuşuq. Bu dünya tarixində nadir hallardandır ki, ərazisi uzun illərdir işğal altında olan, ədaləti güc yolu ilə bərpa edən, düşməni məğlub edərək torpağından qovan ölkə sülh təklif etsin. Biz Ermənistan tərəfindən ərazilərimizin dağıdılması və viran qoyulması, azərbaycanlıların əzab-əziyyət çəkməsinə baxmayaraq, sülh təklif etdik.

Biz məlum beş prinsipdən ibarət sülh və bir növ çərçivəni təklif etdik. Məhz biz delimitasiya komissiyasını yaratmağı təklif etdik. Məhz biz münasibətlərin normallaşdırılması üçün əsasları müəyyən etməyə çalışdıq. Ermənistan bu prosesin ilkin mərhələsində çox tərəddüd edirdi. İndi isə onlar sülh haqqında danışırlar, lakin biz onların anlamında sülhün nə olduğunu anlamırıq. Bununla belə, bizim mövqe çox aydındır. Bu, dəfələrlə ictimaiyyət qarşısında, o cümlədən mənim Avropa Komissiyasının rəhbərliyi və normallaşma prosesində iştirak etmiş, hazırda iştirak edən ölkələrin, yəni, Birləşmiş Ştatların və Rusiyanın liderləri ilə kontaktlarım zamanı qeyd olunub. Bizim iki yolumuz olmalıdır: Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması prosesi və həmçinin hüquqlar və təhlükəsizlik baxımından Azərbaycanda, Qarabağda erməni azlığına aid məsələlər.

Elə dünən dövlət katibi Blinken ilə mənim telefon danışığım olub. Biz bu haqda bir daha danışdıq. Biz tam anlayırıq ki, iki yol olmalıdır və onlar bir-birinə qarışmalı deyil. Lakin Ermənistandan gələn bəyanatlar çox ziddiyyətlidir. Onlar bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Bu, bütün ərazimizin suverenliyi deməkdir. Hamımız suverenliyin nə olduğunu anlayırıq. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik. Buna görə bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır.

Bir sözlə, bir daha deyirəm ki, biz onların əməllərini sözlərlə deyil, addımlarla ölçməliyik. Çünki onların dedikləri sözlər etdikləri əməllər və ya planları ilə ziddiyyət təşkil edir. Bununla bağlı, bilmirəm, siz Ermənistan rəhbərliyindən birbaşa cavab almısınız, yoxsa yox. Mən şübhə edirəm, çünki onlar bu ikimənalılığı saxlamaq istəyir və bu isə heç də fayda gətirmir. Eyni zamanda, əgər bu ölkə sülh istəyirsə, onda o, çox təhlükəli ritorikadan əl çəkməlidir. Bu yaxınlarda Ermənistan rəsmiləri Azərbaycanı İŞİD və "Əl-Qaidə" ilə müqayisə etmişdilər. Fikrimcə, bu, çox təhlükəli ritorikadır. Birincisi, onların özləri İŞİD və "Əl-Qaidə" kimi hərəkət etmişdilər. Avropa İttifaqının səfirləri azad edilmiş ərazilərə baş çəkmişdilər. Ermənilər tarixi və dini irsə İŞİD və "Əl-Qaidə"nin eynilə etdiyi kimi yanaşmışdılar. Biz yox. Onlar. Onlar terror aktları törədiblər. Onlar soyqırımı törədiblər. Onlar bizim məscidləri uçurublar. Biz yox.

Lakin cənab Paşinyan bu sözləri istifadə edərkən bilməlidir ki, biz bunu eşidirik. O, bizim reaksiyamızın necə olacağı barədə düşünməlidir. Bir sözlə, məsələ asan deyil. Hesab edirəm, vacib odur ki, Ermənistan əslində istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni, kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni, Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, ölkəmizin regional nəqliyyat-logistika qovşağı olması vurğulanıb. Söhbət zamanı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

***İnformasiya şöbəsi***



## "Havadan barıt qoxusu gəlir" - Siyavuş Novruzov

***"Bu gün havadan barıt qoxusu gəlir. Ona görə də büdcə müzakirəsində təhlükəsizlik, müdafiə məsələləri öndə olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Siyavuş Novruzov deyib.

Deputat qeyd edib ki, hökumətlə bir yumruq kimi olmalıyıq.

"Ali Baş Komandan İlham Əliyevin şəkli Azərbaycanın ürəyi olan Təbrizdə, Ərdəbildə, Xoyda, hər yerdə divarlara vurulub. Onun adı Azərbaycan xalqının lideri, Qarabağın fatehi kimi çağırılır. İstər Əmir Teymur, istərsə də Şah İsmayıl Xətaidən sonra türk rəhbərlərinin arasında yeganə Azərbaycan Prezidentidir ki, bu gün ona bu ad verilib. Azərbaycan xalqı olaraq bunu dəstəkləyirik. Cənublu qardaşlarımıza qeyd etmək istəyirəm ki, bu fatehlik tək Qarabağla bitməyəcək, onun fatehliyindən çox yeniliklərin şahidi olacağıq. Ona görə də burada büdcəni müzakirə edən vaxt dünyada baş verən hadisələr içərisində kiçik məsələlərə getməyib, qlobal məsələləri ortaya qoymalıyıq. Bir yandan Fransa, bir yandan İran, bir yandan Rusiya göndərir fərman. Belə dövrdə tək hərbi müdafiədən yox, eləcə də hərbi, diplomatik, informasiya, sosia-iqtisadi, ərzaq təhlükəsizliyindən söhbət gedir. Bu da qlobal məsələlərdən biridir ki, bunları həll etməliyik".

Spiker Sahibə Qafarova isə bildirib ki, Azərbaycanın heç bir dövlətin torpağında gözü yoxdur.

***Anar Kəlbiyev***

## Deputat bu şəxslərin maaşının artırılmasını təklif etdi

***"Regionlardakı Heydər Əliyev Mərkəzlərində çalışan işçilərin maaşlarının artırılmasını təklif edirəm".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Elşad Mirbəşir deyib.

Deputat xatırladıb ki, ümumilikdə 60 şəhər və rayonda Heydər Əliyev Mərkəzləri var.

"Bildiyimiz kimi həmin mərkəzlər Mədəniyyət Nazirliyinin tabeliyindəndir. Təklif edirəm ki, gələcəkdə həmin mərkəzlər Bakıda yerləşən Heydər Əliyev Mərkəzinin tabeliyinə verilsin".

***Anar***

# "Azərbaycanın sanksiyalarla, təzyiqlərlə üzləşməsini istəyirlər ki, torpağı versin"

## Tahir Kərimli: "Belə məsələlərdə ağıllı olmaq lazımdır, bizim milli birliyimiz onları çəkindirə bilər"



***Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi qətnamənin məqsədlərindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasının səbəblərindən, İranın Azərbaycana qarşı mövqeyindən və başqa məsələlərdən danışıb.***

***-Tahir müəllim, məlum olduğu kimi, noyabrın 15-də Fransa Senatında Azərbaycana qarşı qətnamə qəbul olundu. Bu qətnamənin qəbul olunmasının məqsədi nədir?***

-Fransa Senatının qəbul etdiyi qətnamə siyasi və ideoloji cəhətdən ermənilərə kartblanş verir. Həmçinin, realhüquqi prosedurlar da yarana bilər. Belə ki, Fransa Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Ona görə də bu məsələni qaldıra bilər. Məlum olduğu kimi, Fransada yaşayan radikal ermənilər var. Onları silahlandırıb göndərə bilərlər. Bununla yanaşı, Fransa Ermənistana açıq şəkildə silah tədarük edə bilər. Amma ölkəmizə qarşı neft və qaz embarqosunun qoyulmasına inanmıram. Ona görə ki, Cənubi Avropa ölkələri yaman günə qalar. Şimali və Mərkəzi Avropa ölkələri yox, amma Cənubi Avropa ölkələrinə əhəmiyyətli dərəcədə neft-qaz veririk. Onlar bu addımı atsalar, özlərinə ziyan edərlər. Azərbaycan buna dözər. Amma indiki halda Avropa ölkələri buna dözə bilməz. Bununla yanaşı, İranın hərəkətlərinə də diqqət etmək lazımdır. Sanki bir növ koordinasiya işi yaranıb. Xırda dövlətlər var idi ki, belə məqamlarda cürət etmirdilər. Fransa onlara göstərir ki, harada xristian xalqı incidilirsə, onların müdafiəsinə çıxıram. Bununla siz də bizə qoşulun deyirlər. Biz burada islamafobiyanı görürük. Burada xristian dünyasına mesaj vermək kimi hallar var. Ona görə də Fransa düşmən dövlət elan edilməlidir. Düşmən necə olur?! Hesab edirəm ki, Fransa əsl düşməndir. Düşmənçiliyin bundan artıq səviyyəsi olmaz.

Fransanın hərəkətləri səlib yürüşlərinin davamıdır. Bunlar türklərə, müsəlman xalqlarına açıq nifrət edirlər.Təcili şəkildə Fransada olan səfirimiz məsləhətləşmələr üçün geri çağırılmalıdır. Onların şirkətləri belə bizə lazım deyil. Burada olan Fransa səfirliyi əməkdaşları "persona non qrata" elan olunsun. Ümumiyyətlə, fransızlar tarix boyu çoxlu qan töküb. O baxımdan, Fransanın Əlcəzairdə soyqır törətməsi ilə bağlı qətnamə qəbul etməliyik. Bu andan dövlətimiz ətrafında milli birlik yaratmaq lazımdır. Özünü demokratik elan edən Fransa bizlərə zülm edir. Ayıq olmalıyıq və vahid mövqedən çıxış etməliyik. Fransanın məkrli planlarına qarşı çıxanlarla diplomatik və digər əlaqələri gücləndirməliyik. Tək öz qüvvəmizə inanıb düşməni zəif bilməməliyik. Xalq bilməlidir ki, hər an başımıza iş gələ bilər.

***-Qətnamə layihəsində "Azərbaycanın Ermənistan ərazisindən və Laçın dəhlizindən çəkilməsi" tələb olunub. Onlar düşünür ki, Azərbaycan suverən ərazilərindən öz qoşununu çıxarmalıdır?***

-Fransa Prezidenti Emmanuel Makron oranı mübahisəli ərazi adlandırır. Təsəvvür edin ki, "Artsax"dan danışırlar. 1000-1500 il bundan əvvəl dünyanın 90 faiz dövlətləri olmayıb. Onda onlar desinlər ki, biz filan dövlətləri bərpa edirik? Bu, absurddur və açıq həyasızlıqdır. Fransa açıq şəkildə ermənilərin müdafiəsinə qalxır və Azərbaycan torpağını mübahisəli ərazi hesab edir. Hətta bir az irəli gedərək onu "Artsax respublikası" kimi elan edirlər. Azərbaycanın sanksiyalarla, təzyiqlərlə üzləşməsini istəyirlər ki, torpağı versin. Bu da mümkün deyil. Parlamentdə çıxışımda da bu məsələyə diqqət çəkdim. Azərbaycan real müharibə astanasındadır. Müəyyən qüvvələr istəyir ki, azərbaycanlılar qurban olsun. Hazırda Ukrayna-Rusiya müharibəsi davam edir. İki slavyan xalqını yaman günə qoyduqları göz önündədir. Ukrayna nə vaxt düzələcək? Ona görə də belə məsələlərdə ağıllı olmaq lazımdır. Bizim milli birliyimiz onları çəkindirə bilər. İqtidar, müxalifət hamımızın birliyi vacibdir.

***-Müharibə məsələsinə toxundunuz. Bir tərəfdən Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar gedir. Buna baxmayaraq, tez-tez Ermənistan silahlı qüvvələri tərəfindən mövqelərimiz atəşə tutulur. Yenidən sərhəddə toqquşmalar ola bilərmi?***

-Deyərdim ki, bu çox realdır. Çünki müəyyən qüvvələr Ermənistanı həvəsləndirir. Məcbur edirlər ki, Azərbaycan adekvat reaksiyalar versin. Hazırda kövrək bir mənzərədir. Ermənistanın sülh müqaviləsinin imzalanmasından qaçması da bunu göstərir. Əslində, Ermənistanın Baş naziri Nikol Paşinyan sülh müqaviləsinin imzalanmasını istəyir. Oradakı revanşist qüvvələr və erməni diasporu isə bunu istəmir. Heç bir xristian Ermənsitanın uduzmasını istəmirlər. Yüz illərlə plan düşünərək gəlib Qafqazda süni erməni dövləti qurublar. Onun dağılmağı, zəifləməsi xristian aləminin anklavının kiçilməyi deməkdir. Onlar bu baxımdan razı deyillər. Ona görə də Ermənistana müqavilə imzalamağa imkan vermirlər. Deyirlər ki, istədiyiniz qədər raket verəcəyik və s. Onlara deyirlər ki, gücünüzü 10 dəfə artıracayıq. Fransa açıq şəkildə Ermənistana deyir ki, sənə hər yardımı göstərməyə hazıram. Onların qəbul etdiyi qətnamə də bunun üçün hazırlıqdı. Emmanuel Makron bu sənədi imzalasa, bu elə müharibə elan etmiş kimidir. Bu, Fransanın Ermənistan vasitəsilə Azərbaycana qarşı müharibə elan etməsi deməkdir. Ona görə də, ciddi, diplomatik, ağıllı düşüncəli siyasət lazımdır. Sabitliyin pozulması üçün açıq hədələr var.

***-Bütün bunların fonunda İranın son dövrlər Azərbaycana qarşı olan mövqeyi məlumdur. Onların ölkəmizə qarşı təhdid dolu fikirlər səslənDirməkdə məqsədi nədir?***

-İran düşünməlidir ki, indi ciddi şəkildə onu sarsıtmaq, hakimiyyəti dəyişmək, bu ölkəni parçalamaq və s. kimi müxtəlif proqramlar var. İran, bunların hamısı sənin başındadır. Belə bir vaxtda sənə Azərbaycanla düşmənçilik etmək lazımdırmı? Orada ağıllı başlar olmalıdır ki, düşünsünlər, sənin içindəki xalqlar da, biz də qurbanlıq ola bilərik. Necə ki, Ukrayna xalqı əzilir, ölkə dağılır. Bu baxımdan, İran ayılmalıdır. 2020-ci ildəki Vətən müharibəsində İran sanki uduzdu. Gizli də olsa, İran Ermənistanın tərəfində idi. Bunlar artıq açıldı. Bildiyiniz kimi, İran Ermənistana qaz verir. İran 4 ayın içərisində Ermənistana qaz xətti çəkdi. Yoxsa, Ermənistanda erməni qalmayacaqdı. Yaxşı, burada fars-erməni birliyi varsa, axı, İran dövləti ancaq farslardan ibarət deyil. Onlar düşünmür ki, bu türk xalqlarının mənafeyinə ziddir? İran orada həm də azərbaycanlıların dövlətidirsə, onların atdığı addım doğru deyil. İndiki vaxtda Azərbaycanla düşmənçilik etməkdənsə, görsünlər ki, Fransa nələr etmək istəyir.

***Anar Kəlbiyev***

# Mədəniyyət Nazirliyində yeni pul qalmaqalı

## Böyük müəmma: müsabiqə qalibləri üçün ayrılan 300 min manat haradadır?

***Mədəniyyət Nazirliyi ətrafında yeni qalmaqal qopub. Belə ki, 2022-ci ilin martında Mədəniyyət Nazirliyinin təşkil etdiyi "Tammetrajlı bədii film layihələrinə dəstək" müsabiqəsinin qalibləri açıqlansa da, onlara ümumilikdə ayrılan 300 min manat sahiblərinə çatdırılmayıb.***

"Hər halda hansısa işləri yolunda getmir. Bunu da bu layihənin maliyyəsi ilə ört-basdır edirlər" - deyə rejissor Azər Allahverdiyev mövzu ilə bağlı danışarkən deyib. Rejissor bunu nazirliyin reputasiyası üçün xoş olmayan hal adlandırıb.

Ssenarist Nicat Dadaşov isə Nazirliyindəki rüşvət və korrupsiya "bataqlığının" qurudulmasına kömək eləmədiyinə dair qənaət yaradıb. Nəticə etibarilə isə Ə.Qarayevin ardınca Anar Kərimov da ciddi tənqidlərin hədəfinə çevrilib.

Qurumdan 300 min manatı ala bilməyən ssenarist və rejissorların narazılığı onu göstərir ki, Mədəniyyət Nazirliyində vəsaitlərin düzgün, təyinatı üzrə xərclənməməsi sayəsində problem qalır.

Araşdırmalarımız nəticəsində aydın olub ki, oxşar qalmaqal ötən il də yaşanıb. Belə ki, XII Bakı Beynəlxalq Qısa Filmlər Festivalının ardından Mədəniyyət Nazirliyi ilə "Cinema" yaxşı animasiya filmi" nominasiyaları üzrə qaliblər müəyyənləşməyib. Bu da müsabiqəyə film təqdim edən gənc rejissorlar arasında nazarılıqlara səbəb olub.

Nazirlikdən isə bildirilib ki, festivalın təşkilatçısı "Cinema" Gənc Kinematoqrafçılar Mərkəzidir: "Nazirlik Azərbaycanın ən yaxşı filmlərinin seçilməsi üçün keçirilən beynəlxalq tədbirə müəyyən maliyyə dəstəyi göstərib. Festivalın Mədəniyyət Nazirliyi tərəfindən dəstəklənən hissəsinin büdcəsində mükafat fondu üçün hər hansı bir məbləğ nəzərdə tutulmayıb. Mükafatçılar üçün nəzərdə tutulan vəsaitlə bağlı sorğu festivalın



ödənişlərin verilməməsi işlərini davam etdirə bilmirlər.

Qaliblər həmçinin vurğulayıblar ki, müraciətlərinə konkret cavab gəlməyib: "Deyirlər ki, gözləyin, veriləcək... Ancaq bu, işimizin irəliləməsinə köməklik eləmir".

Mədəniyyət Nazirliyi isə hələlik məsələ barədə açıqlama vermir.

Xatırladaq ki, bu günlərdə Mədəniyyət Nazirliyində növbəti anti-korrupsiya yoxlaması keçirilib. Belə ki, ilk dəfə 2020-ci ildə Dövlət Təhlükəsizlik Xidməti (DTX) bu qurumda əməliyyat aparıb və həmin əməliyyat nəticəsində yüksək vəzifəli şəxslərin həbsi, eləcə də Əbülfəs Qarayevin postundan kənarlaşdırılması ilə nəticələnib. İkinci dəfə isə təxminən 20 gün öncə adıçəkilən nazirlikdə yeni əməliyyat baş tutub. Nəticədə nazirin birinci müavini vəzifəsindən kənarlaşdırılıb, həmçinin nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri həbs olunub. Bu isə cəmiyyətdə nazir dəyişikliyinin belə Mədəniyyət Gənc Kinematoqrafçılar Mərkəzi arasında ixtilaf yaşanıb. "Cinema"dan bildirilib ki, festivalın əsas dəstəkçisi Mədəniyyət Nazirliyi olub: "Ancaq tədbir daxilində hələ bir neçə ay öncədən elan olunan mükafat fondunun yaradılması ideyası isə festival komandasına, birbaşa olaraq "Cinema" Gənc Kinematoqrafçılar Mərkəzinə məxsusdur. Festivalın "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı animasiya filmi", "Ən yaxşı sosial çarx" nominasiyasının qalibinə pul mükafatları da məhz mərkəzin - festivalın təşkilat komandasının hesabına ödəniləcək. "Cinema" Gənc Kinematoqrafçılar Mərkəzi ilə Mədəniyyət Nazirliyi arasında mükafat fondu ilə bağlı heç bir müqavilə və razılaşma olmayıb. Bu təşəbbüs bizim yerli gənc rejissorlar üçün nəzərdə tutduğumuz bir stimul formasıdır".

Lakin sonda maraqlı vəziyyət yaranıb: mükafat fondu 5 000 AZN olan yerli müsabiqədə "Ən yaxşı bədii film" və "Ən təşkilatçısına ünvanlanmalıdır. İki nominasiyada heç bir filmə mükafatın verilməməsi münsiflər heyətinin qərarıdır. Nə Mədəniyyət Nazirliyinin, nə də təşkilat komitəsinin münsiflər heyətinin rəyinə müdaxilə etməsi mümkün deyil".

Bir sözlə, Əbülfəs Qarayevdən sonra Anar Kərimov zamanında da Mədəniyyət Nazirliyi ilə sənət adamları - rejissorlar, ssenaristlər, bəstəkarlar, teatr adamları arasında pul qalmaqalları davam edir. Yaradıcı şəxslər onların halal haqqı olan pullarını, qonorarlarını, mükafatlarını ala bilməməkdən gileylənir, nazirlik isə ən müxtəlif bəhanələrlə "sudan quru çıxmağa" çalışır. Dövlət satınalmalarına müəmmalı tenderlər vasitəsilə milyonlarla manat xərcləyən nazirliyin sənət adamlarına belə münasibəti anlaşılmazdır. Üstəlik, həmin münasibətin nə ilə nəticələndiyini Qarayev və komandasının aqibətindən hər kəsin yaxşı bildiyi halda!

***Toğrul Əliyev***

# Vətəndaşları "xaricdə işə düzəldirdi" - Tutuldu

***Sosial şəbəkədə tanış olduğu şəxsləri xaricdə işə düzəltmək adı ilə aldadan şəxs saxlanılıb.***



Daxili İşlər Nazirliyindən (DİN) Mətbuat Xidmətinin Lənkəran regional qrupundan "Unikal"a verilən məlumata görə, Lənkəran rayonunun Siyavar sakini olan bir nəfər polisə müraciət edərək sosial şəbəkədə tanış olduğu Anar adlı şəxsin işə düzəltmək adı ilə ondan 3500 manat pulunu alaraq mənimsədiyini bildirib.

Zərərçəkmiş şəxs müraciətində pulu qarşı tərəfin göndərdiyi kart hesabına köçürdüyünü bildirib. Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin dələduzluq faktını törətməkdə şübhəli bilinən şəxs müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla onun Bakı şəhər sakini Anar Rzayev olduğu müəyyən edilib. Aparılan əlavə araşdırmalarla həmin şəxsin sosial şəbəkə vasitəsilə tanış olduğu daha 3 nəfər Lənkəran sakininə qarşı dələduzluq etdiyi məlum olub.

Belə ki, A.Rzayev həmin şəxslərin etibarından sui istifadə edərək müxtəlif məbləğlərdə pullarını xaricdə işə düzəlmək adı ilə alaraq mənimsəyib. Məhkəmənin qərarı ilə həmin şəxs barəsində həbs qətimkan tədbiri seçilib. A.Rzayevin bu kimi əməllərindən zərər çəkən digər şəxslər varsa Lənkəran ŞRPŞ-yə və ya ərazi polis orqanına müraciət edə bilərlər.

Faktla bağlı araşdırma aparılır.

# Müharibə veteranlarına güzəştli ipoteka hüququ verilsin



***"Təklif edirəm ki, müharibə veteranları güzəştli ipoteka krediti alanların kateqoriyasına daxil edilsin".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Aqiyə Naxçıvanlı deyib.

Deputat bildirib ki, Azərbaycanda şəhid ailələrinin övladları təhsil haqlarından azad olunublar.

"Yaxşı olar ki, bir sıra güzəştlər müharibə veteranlarının övladlarına da şamil edilsin. Müharibə veteranlarının övladları tam olmasa da, müəyyən qədər təhsil haqlarından azad edilməlidir".

***Anar Kəlbiyev***

# Vətəndaşları narahat edən əsas problem budur

***Xəbər verdiiymiz kimi, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2022-ci ilin may-avqust aylarında keçirdiyi rəy sorğusunun nəticələrini açıqlayıb.***

Rəy sorğusunun Problemlər və gözləntilər bölümündə Azərbaycanda vətəndaşların qarşılaşdığı əsas məsələlər yer alıb. Belə ki, sorğu çərçivəsində vətəndaşlardan hazırda Azərbaycanda əsas problemlər kimi hansı məsələləri gördükləri soruşulub. Respondentlər onları narahat edən problemlər arasında ilk sıralarda qiymət artımı (65.7), işsizlik (57.1%), maddi təminat (38.5%), narkomaniya (35.4%), dərman vasitələrinin keyfiyyəti (26.4%), korrupsiya (25.4%) məsələlərini qeyd ediblər. Respondentlərin cəmi 4.3%-i onu narahat edən problemin olmadığını qeyd edib.

Vətəndaşların yeni iş yerlərinin yaradılması (77.0%), məmur özbaşınalığının qarşısının alınması (68.5%), sosial rifahın daha da yaxşılaşdırılması (62.7%), şəhid ailələrinin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yaxşılaşdırılması (57.5%), vətəndaşlarla daha sıx görüşlərin keçirilməsi (52.7%), təhsilə və elmə diqqətin artırılması (52.0%), korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi (49.1%), səhiyyə xidmətinin keyfiyyətinin artırılması (40.5%) Prezidentdən ictimai gözləntilər arasında ilk sıralarda qərarlaşıb. Sorğuda iştirak edənlərin 2.3%-i Prezidentdən heç bir gözləntisinin olmadığını qeyd edib.

Sorğuda respondentlərdən cari il ərzində gəlirlərinin hansı istiqamətdə dəyişdiyi də soruşulub. İştirakçılarının 19.6%-i cari il ərzində gəlirlərinin artdığını, 43.7%-i gəlirlərini dəyişməyini, 35.6%-i isə azaldığnı bildirib. Respondentlərin cəmi 1.1%-i bu sula cavab verməkdən imtina edib.



## "Hərbçilərin maaşı 50 faizə qədər artırılsın" - Zahid Oruc

***"Gələn ilin büdcə layihəsi Vətən müharibəsində qələbəmizi möhkəmləndirir, Murovdan Arazadək 400 km-dən artıq, o cümlədən, İranla 132 km-lik sərhəddə güclü hərbi müdafiə sistemi qurmağa, o cümlədən gələn ilin müharibə provokasiyalarına qarşı ordunu gücləndirməyə imkan verir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc deyib.

Deputat təklif edib ki, yeni qazandığımız və hələ delimitasiya edilməyən sərhədlərdə hərbi mövqe tutan zabit və əsgərlərin ödənişləri indiki kimi 20 faiz deyil, 50 faizə qədər artırılsın:

"Bundan ötrü 100 milyonlara ehtiyac yoxdur, lakin nəticə təhlükəsizliyimiz üçün önəmlidir".

***Anar Kəlbiyev***

## Çavuşoğludan Azərbaycana təbrik

***Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu 17 Noyabr Milli Dirçəliş Günü münasibətilə Azərbaycanı təbrik edib.***



"Unikal" xəbər verir ki, nazir bununla bağlı "Twitter" hesabında paylaşım edib.

"17 Noyabr Milli Dirçəliş Günü münasibətilə Can Azərbaycanı təbrik edirəm. Azərbaycan əbədiyyən müstəqil qalacaq! Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!" , - Çavuşoğlu yazıb.

## Kişilərin pensiya yaşı azaldılmalıdır - Deputat

***Milli Məclisdə kişilərin pensiya yaşının azaldılması təklif olunub.***

"Unikal" xəbər verir ki, bu barədə deputat Qüdrət Həsənquliyev Milli Məclisin bu gün keçirilən iclasında çıxış edib.

Deputat xatırladıb ki, Statistika Komitəsinin məlumatına əsasən, ölkədə kişilərin 47%-i 65 yaşa qədər yaşayır: "Ona görə də, biz Milli Məclis olaraq kişilərin pensiya yaşlarına yenidən baxmalıyıq ki, heç olmasa, 47% kişi pensiya ala bilsin".

# Emin Əmrullayev üçün 4,4 milyard manatlıq son şans...

### Təhsillə bağlı ictimai narazılıqları aradan qaldırmaq üçün başqa nə lazımdır?!

***2023-cü ilin dövlət büdcəsində təhsil xərcləri 4 milyard 423 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da cari ilə nisbətən 537 milyon manat və ya 13,8 faiz, 2021-ci ilin icra göstəricilərinə nisbətən isə 1 milyard 331 milyon manat və ya 43 faiz çox deməkdir. Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.***

Beləliklə, 2019-cü illə müqayisədə 2023-cü ildə təhsil xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,2 faiz-bənd, mütləq ifadədə isə 2 milyard 227 milyon manat və ya 2 dəfə artıq olacaqdır.

O da qeyd edilib ki, gələn il 150 min nəfərədək uşağı əhatə edəcək ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının açılması, 8 milyon nüsxə pulsuz dərsliklərin şagirdlərə verilməsi, xüsusi təhsillə əhatə olunan 12 min 700 nəfər uşağın təhsil, tibb, sağlamlıq və reabilitasiya müəssisələrinə aparıb-gətirmək üçün valideynlərinə və ya qanuni nümayəndələrinə aylıq müavinətin, 19 min nəfərədək gənc mütəxəssisin kənd rayonlarında yerləşən ümumi təhsil məktəblərində işə cəlb olunmalarının stimullaşdırılması məqsədi ilə kompensasiyanın və aylıq əlavənin ödənilməsi, həmçinin təhsil sisteminin informasiyalaşdırılması ilə bağlı xərclər üçün 152 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bir sözlə, Azərbaycanda əksər valideynlərin məktəblərdə verilən təhsilin səviyyəsindən narazılıq etdiyi bir vaxtda dövlət gələn il bu sahəyə dəstəyini, himayəsini daha da artırıb. Bircə qalır təhsil sahəsinə məsul şəxslərin öz fəaliyyətini də gücləndirməsi!

Bir az da konkretləşdirək: bu yaxınlarda da yazmışdıq ki, az qala, elə bir həftə yoxdur ki, yazılı və elektron mətbuatdan tutmuş sosial şəbəkələrədək təhsil müəssisələrində yaşanan hansısa



qalmaqal xəbər, yaxud müzakirə mövzusu olmasın. Gah hansısa məktəb direktorunun müəllimlərdən, gah hansısa məktəbdə müəllimlərin valideynlərdən rüşvət istəməsinə, tələb etməsinə dair səs yazısı yayılır, gah da hansısa məktəbin şagirdləri arzuolunmaz, xoşagəlməz davranışlarla ölkə gündəmini zəbt edir. Bir sözlə, Azərbaycan təhsili deyərkən biz hələ də uğurlu nəticələrdən çox, qalmaqallı hadisələrdən danışırıq.

Halbuki, Emin Əmrullayev təhsil naziri postuna təyin edildikdən sonra gözə də, qulağa da xoş gələn mesajlar vermişdi. Bu sahənin rüşvətsizləşdirilməsi və şəffaflaşdırılması baxımından əməli addımların atılacağını anons etmişdi. Lakin Əmrullayevin nazir təyin edilməsindən iki ildən çox vaxt keçsə də təhsil müəssisələrində qanunsuz pul yığımları nəinki azalıb, hətta son bir neçə ayda ictimailəşdirilən səs yazılarından belə anlamaq olar ki, vəziyyət daha da acınacaqlı hal alıb.

Yaxud, ölkəmizin növbəti illərdə əsas hədəflərini göstərən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" adlanan sənəddə təhsilin də məqsədi müəyyənləşdirilib, qarşısında duran hədəflər öz əksini tapıb. Bu sənədi qiymətləndirən Əmrullayev bildirmişdi ki, həmin sənədlə qarşıya qoyulan 2 böyük hədəfdən birincisi beynəlxalq qiymətləndirmələrdə Azərbaycanın topladığı balı yüksəltməkdir. Nazir hazırda 402 bal təşkil edən həmin nəticəni 2028-ci ildə 422 bala qaldırmağın hədəfləndiyini demişdi. Ali təhsil müəssisələrimizdən isə, heç olmasa, 2 universitetin dünyanın ən yaxşı 800 universiteti sırasına daxil olmasını növbəti illərin digər əsas hədəfi kimi planlaşdırıldığını vurğulamışdı.

Əlbəttə, qarşıya konkret hədəflər, məqsədlər qoymaq önəmlidir.

Lakin daha önəmlisi bu hədəflərə, məqsədlər çatmaq üçün konkret, əməli iş görməkdir.

Mümkündür ki, Təhsil Nazirliyi yaxın dövr üçün planlarını yerinə yetirə bilmək üçün çalışır, ancaq fakt burasındadır ki, biz təhsil sahəsində hələ də 10-15 il öncənin, Misir Mərdanov dövrünün problemlərini müşahidə və müzakirə edirik.

Bu xoşagəlməz tendensiyaya son qoymaq üçün isə Emin Əmrullayev və komandasının hər hansı bəhanəsi qalmır. Təhsil sahəsi üçün gələn il ayrılan 4,4 milyard manatlıq nəhəng büdcə imkan verir ki, bu sektora məsul nazirliyin rəhbərliyi qarşıya qoyduqları konkret hədəflərə, məqsədlərə çatmaq üçün daha səylə çalışsın. Sözügedən məbləğdən sonra da biz təhsildə Mərdanov zamanından qalma problemləri müşahidə və müzakirə edəcəyiksə, onda Təhsil Nazirliyinin hazırkı rəhbərliyinə etimad tamamilə zəifləyəcək.

Hətta Əmrullayevin vəzifəsindən azad ediləcəyinə dair bir müddətdir mediada və cəmiyyətdə dolaşan iddiaların reallaşa biləcəyini də ehtimal etmək mümkündür...

***Sənan Mirzə***

# Dövlət Xidməti DTX-nın Beyləqandakı əməliyyatı ilə bağlı məlumat yaydı

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Beyləqandakı əməliyyatla bağlı məlumat yayıb.***

Dövlət Xidmətindən "Unikal"a daxil olan məlumatda deyilir: "Vətəndaşların və sahibkarların əmlak hüquqlarının, qanuni maraqlarının qorunması, fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların qarşısının alınması məqsədilə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən sistemli və davamlı tədbirlər həyata keçirilir.

Əməkdaşlarının fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təmin edilməsi, neqativ halların aradan qaldırılması Dövlət Xidmətinin fəaliyyətində prioritet hesab edilir. ƏMDX korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq edir.

Qeyd edək ki, son illərdə Dövlət Xidmətinin bəzi əməkdaşlarının cinayət məsuliyyətinə cəlb olunması istiqamətində hüquq-mühafizə orqanları ilə birgə tədbirlər həyata keçirilib.

Kütləvi informasiya vasitələrində Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin Beyləqan Ərazi idarəsinin əməkdaşının saxlanılması xəbəri ilə bağlı bildiririk ki, yol verilən qanun pozuntusu barədə Xidmətə daxil olmuş məlumatlar hərtərəfli və obyektiv araşdırılması üçün aidiyyəti hüquq-mühafizə orqanına təqdim edilib. Hazırda araşdırma aparılır.

Aparılan araşdırmanın qərəzsizliyinin və barələrində təhqiqat aparılan şəxslərin hüquqlarının təmin edilməsi, hal-hazırda təhqiqat prosesinin fəal fazada olmasını, həmçinin təqsirsizlik prezumpsiyasını əsas götürərək araş-




dırmanın gedişatı barədə rəsmi məlumatın səlahiyyətli orqanından gözlənilməsini məqsədəuyğun hesab edirik. Hazırkı məqamda ƏMDX tərəfindən əlavə şərhlərin verilməsi nəzərdə tutulmur".

# Ziya Məmmədova 30 milyard manatlıq sual

## Dolanışıqdan gileylənən keçmiş nazir həmin sualın cavabını nə vaxt verəcək?

***Bu günlərdə internetdə maraqlı bir xəbərə rast gəldik. Həmin xəbərdə deyilirdi ki, bir müddət öncə Moskva Dövlət Texniki Avtomobil-Yol Universitetinin (MADİ) iki il qabaq apardığı araşdırmaya görə dünya üzrə ən bahalı yol Kanadada çəkilir və bir zolağın kilometri orta hesabla 2.2 milyon dollara başa gəlir. Birləşmiş Ştatlarda isə bir kilometr yolun orta qiyməti 1.71 milyon dollardır.***

Maraqlıdır ki, dünyanın ən uzunömürlü avtomobil yollarına sahib olan Almaniyada isə yol tikintisinə daha az vəsait xərclənir - 1.1 milyon dollar.



Bəs həmin xəbər bizim üçün niyə diqqətçəkən idi?

Məsələ burasındadır ki, Azərbaycana böyük neft pullarının gəldiyi illərdə büdcədən ən iri investisiyalar yol infrastrukturunun yenidən qurulmasına ayrılıb. Paytaxta ölkənin Qərb, Cənub və Şimal sərhədlərini birləşdirən magistral yollar yenidən qurulub, genişləndirilib, habelə paytaxtda yol qovşaqları, körpülər, tunellər inşa edilib. Əksər yollar genişləndirilib, yeniləri çəkilib və nəticədə ölkənin sürətlə artan avtomobil parkının tələbatını qarşılamağa müəyyən dərəcədə nail olunub.

2007 ci-ildən etibarən hər il yol tikintisinə büdcədən azı 2 milyard manat vəsait ayrılıb. Eyni zamanda, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. beynəlxalq maliyyə qurumlarının, kreditor ölkələrin milyardlarla dollarlıq vəsaitlərindən istifadə edilib.

Bütün bu vəsaitlər üzərində sərəncam və nəzarət hüququ isə artıq ləğv edilən Nəqliyyat Nazirliyinin rəhbəri Ziya Məmmədovda olub. Mütəxəssislərin hesablamalarına görə, onun nazir olduğu dövrdə yol infrastrukturuna ümumilikdə 30 milyard manatdan çox investisiya yatırılıb. Belə ki, 2002-2017-ci illəri əhatə edən həmin dövrdəki bəhs olunan külli miqdarda vəsait fonunda Z.Məmmədov "ZQAN" Holdinq qurub, bu ailə şirkəti vasitəsi ilə bank, sığorta, tikinti, turizm, ticarət, otelçilik və s. sahələrdə hegemon mövqelərə yiyələnib. Hərçənd, eks-nazir postunu itirdikdən sonra korrupsiya qoxulu "biznes imperiyası" da qürub etdi.Yerli medianın da dəfələrlə yazdığı kimi, Z.Məmmədov vəzifədən getsə də Azərbaycanın yol infrastrukturunda onun "şah əsərləri" qalmaqdadır. Məsələn, 2008-ci ildə inşa olunan Bakı-Quba-Rusiya avtomobil yolunun tikintisinə büdcədən 545 milyon 287 min 800 manat xərclənmişdi. O zaman Ziya Məmmədov Bakı-Quba-Rusiya avtomobil yolunun 30 il davam gətirəcəyini bəyan edirdi. Ancaq yol istismara verildikdən qısa müddət sonra sıradan çıxmağa başladı, hazırda isə o, tamamilə yenidən qurulur...

Z.Məmmədovun dövründə yenidən qurulmuş Bakı-Şamaxı yolu da maliyyə yeyintilərinə görə ikizolaqlı tikilmişdi, kifayət qədər büdcə vəsaitinin xərclənməsinə baxmayaraq avtoban inşa edilməmişdi. Bir neçə il əvvəl hökumət məcbur olub Dünya Bankının kreditləri hesabına həmin yolun ikinci hissəsini tikməyə başladı.

Daha sonra ikizolaqlı tikilən Hacıqabul-Kürdəmir yolu da Avropa Yenidənqurma və İnkişaf Bankının 80 milyon dollarlıq krediti hesabına yenidən dördzolaqlı inşa edildi. Bundan əvvəl Nəqliyyat Nazirliyinin podratçı şirkətlər vasitəsi ilə çəkdiyi 100 milyon manata yaxın xərc isə havaya sovruldu. Eyni zamanda, külli miqdarda vəsaitin xərcləndiyi Bakı-Qazax avtomagistralının da bir hissəsi sıradan çıxdı.

Ziya Məmmədovun dövründə Bakıda körpülərin, tunellərin, yolların tikintisinə ayrılmış milyardlar da korrupsiyanın yeminə çevrilib. Onun nazir olduğu dövrdə paytaxtda yolların tikintisinə və təmirinə 10,5 milyard manat xərclənib. Onlardan biri - Zığ-Hövsan-Aeroport istiqamətində uzunluğu 13,2 kilometr olan yolun çəkilməsi layihəsinə, nə az, nə çox düz 460 milyon dollar vəsait xəclənmişdi. Belə çıxırdı ki, yolun1 kilometri təxminən 40 milyon dollara başa gəlib!

Onu da deyək ki, Dünya Bankının 40-a yaxın ölkədə apardığı hesablamalara görə, hər kilometr yeni yolun salınması xərcləri 142 min dollarla 1 milyon 832 min dollar arasında dəyişir. Mövcud olan hər kilometr yolun yenidən qurulmasına isə 62 min dollardan 609 min dollara qədər vəsait xərclənr. Azərbaycanda isə 2006-2015-ci illərdə tikilən yollar bundan qat-qat baha başa gəlib.

Bir faktı da xatırladaq ki, nazirin bu gəlhagəlli dövründə büdcə pullarının xərclənməsinə nəzarət edən Hesablama Palatasına Z.Məmmədovun qudası Heydər Əsədov sədrlik edib. Yəqin ki, əlavə şərhə ehtiyac yoxdur...

Bir sözlə, hazırda güzəranının çətinliyindən gileylənərək doğulduğu rayonda, Ucarda mal-qara saxlamaqla dolanışığını təmin elədiyini söyləyən Ziya Məmmədovun üzərində 15 il boyunca 30 milyard manatı necə xərclədiyinə dair aktuallığını itirməyən şübhələr dolaşır. Kanada, ABŞ-da, Almaniyada belə yolların daha aşağı qiymətə, üstəlik, daha keyfiyyətlə çəkildiyi barədə xəbərləri oxuyandan sonra adam özünü bu sualı ünvanlamaqdan saxlaya bilmir: vəzifədə olarkən milyardlarla manatı necə xərclədiyi barədə sabiq nazirdən, nəhayət ki, soruşan olacaqmı?! Əlbəttə, hüquq müstəvisində...

***Sənan Mirzə***



## "Elə ailə var ki, kömək edən olmasa, acından ölər" - Razi Nurullayev

***"Ünvanlı dövlət sosial yardımı üçün əmək haqqı barədə arayış tələb edilir. Elə ailə var ki, kömək edən olmasa acından ölər. O necə və hansı yolla arayış gətirsin? Büdcədə bu məqsəd üçün nəzərdə tutulan vəsaitlərin həmin insanlara çatacağı ciddi şübhə altındadır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında deputat Razi Nurullayev deyib.

Deputat bildirib ki, kritik kasıblıq həddində olan ailə yardım ala bilmir, az-çox imkanı olanlar isə alır: "Səbəb ehtiyacı olanın yalançı arayış almaq imkanının olmaması, o birilərinin isə dosttanışdan arayış ala bilməsidir. Cənab hökumət nümayəndələri, kasıbın ətrafı və dost-tanışı da olmur. Ona görə də vətəndaşlar deyəndə ki, ünvanlı sosial yardımı da az-çox imkanlılar alır, düz deyir. Çıxış yolu, müraciət edən ailə haqqında müvafiq icra hakimiyyəti orqanının verdiyi arayışdır. Daha adına torpaq var, keçən əsrin 70-ci illərindən qalma avtomobil var kimi məsələlər gündəmdən çıxmalıdır".

R.Nurulayev deyib ki, Məşğulluq mərkəzlərinin fəaliyyəti qənaətbəxş deyil. Onun fikrincə, bu məqsədlə ayrılmış vəsaitlərin rasional xərcələnəcəyi mənim üçün ciddi şübhə doğurur.

Deputat bildirib ki, aidiyyəti üzrə göndərdikləri iş yerlərinin 95%-də vakansiya az qala iki aydır tutulmuş olur: "Amma, müsbət həll olundu kimi qarşısına "üstəgəl" işarəsi qoyulur və o vətəndaşın evi yıxılır. Çünki, bu yalançı "üstəgəl" işarəsi onun bütün instansiyalara qapısını bağlayır. Belə çıxır ki, dövlət idarələri, özəl şirkətlər, digər qurumlar bir-birini aldatmaqla məşğuldur? Bizə isə yalan rəqəmlər yox, narazı insanların sayını azaldacaq real nəticələr lazımdır. Özünüməşğulluq xidməti də özünü doğrultmur. Özünüməşğulluq yardım deyil, biznes fəaliyyətidir. Bununla bağlı komissiya yaradılmasını təklif edirəm. Millət vəkillərinin təmsil olunduğu komissiya bir monitorinq və sorğu aparsın. Görək bu rəqəmlər nə qədər həqiqətdir? Bu komissiya da Agentliyin işinin rasionallaşdırılması üçün tövsiyələrini versin. Apardığım monitorinq həm də aşkara çıxarıb ki, real özünüməşğulluğa layiq olanlar kənarda qalır. Necə ola bilər ki, üç il gözləyəsən və sənə cavab verilməsin? Bu hansı məntiqə söykənən yanaşmadır? Dövlət Məşğulluq Agentliyinin və idarələrinin yarıtmaz əməli nəticəsində narazı insanların sayı çoxalır".

***Anar Kəlbiyev***

## Gələn il orta aylıq maaş bu qədər olacaq

***Bu il Azərbaycanda orta aylıq əmək haqqı 800 manatdır, 2023-cü ildə 898 manat olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə deputat Vahid Əhmədov Milli Məclisdə büdcə müzakirələri zamanı deyib.

"Amma nəzərə almaq lazımdır ki, bütün insanlar bunu ala bilmir, bir çoxları işləməyən, aşağı maaş alan, pensiyalarla dolananlardır. Onların təminatı ilə əlaqədar da bir sıra məsələləri həll etməliyik", - deyə deputat vurğulayıb.

# 2022-ci ilin yanvar-sentyabr aylarında Goranboyun ÜDM istehsalı



***2022-ci ilin yanvar-sentyabr aylarında Goranboy rayonunda 342222,2 min manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,8 faiz çox ümumi daxili məhsul istehsal olub.***

ÜDM-un 76,9 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,6 faizi sənayedə, 37,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 32,3 faizi isə tikinti sahəsində yaradılıb.

ÜDM-un 23,1 faizi xidmət sahələrində, o cümlədən 0,84 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,32 faizi informasiya və rabitə sahəsində, 21,94 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində olub.

Əhalinin hər nəfərinə düşən ÜDM 2902,6 manata bərabər olub.

# Baş redaktor dələduzluğa görə həbs edildi



***Bərdədə baş redaktor dələduzluğa görə həbs edilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupunun baş inspektoru polis kapitanı Aslan Qiyaslı "Unikal"a açıqlamasında bildirib ki, Bərdə Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən keçirilən tədbirlərlə "Tarixin səhifələri" adlı qəzetin baş redaktoru vəzifəsində çalışan Faiq Əzimzadə saxlanılıb.

Araşdırmalar zamanı onun vətəndaşların etibarından sui-istifadə edərək dələduzluq əməlləri törətdiyinə dair əsaslı şübhələr yaranıb.

F.Əzimzadə barəsində Bərdə RPŞ-də Cinayət məcəlləsinin 178.2.2 və 178.2.4-cü (dələduzluq) maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

Məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

# Minatəmizləmə üçün Azərbaycana siçovullar gətiriləcək



***"Minatəmizləmə əməliyyatlarında istifadə üçün Azərbaycana siçovullar gətiriləcək".***

"Unikal" xəbər verir ki, bunu APA-ya açıqlamasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.

O bildirib ki, dünyada mina axtarışlarında siçovullardan istifadə təcrübəsi var və ANAMA da bunun üzərində çalışır:"İlkin planlara görə, növbəti ilin martında test məqsədilə bu siçovullardan Azərbaycana da gətiriləcək. Əgər effektiv olsa, onlardan da istifadə edəcəyik. Hazırda minatəmizləmə əməliyyatlarında itlərdən istifadə edirik. Bu itlər bizə kifayət qədər dəstək verir".

# İrandan Azərbaycana narkotik keçirmək istədilər

***Noyabr ayının 15-də saat 19:20-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Zəngilan rayonunun Baharlı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.***

DSX-dən "Unikal"a bildirilib ki, keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində Araz çayının sahilində gizlədilmiş 1 ədəd bağlamanın içərisində təxmini çəkisi 8 kiloqram 500 qram narkotik vasitəyə bənzər maddə (marixuana) aşkar olunaraq götürülüb. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# İsmət Abbasovun yeni həmləsi

## Sabiq nazir diqqəti Londondan ölkə daxilindəki biznesinə yönəldib

***Son zamanlar keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasovun biznesi ilə bağlı xəbərlər intensivləşib. Belə aydın olur ki, uzun müddətdir "kölgəyə" çəkilən sabiq nazir gəlir qaynaqlarının canlandırılması istiqamətində səylə çalışmağa və bunun bəhrəsini görməyə başlayıb.***

Təxminən 1 ay öncə "Unikal" olaraq yazmışdıq ki, İ.Abbasova məxsus olan 1 saylı Bakı Şərab zavodu, daha dəqiq desək, "Bakı Şərab -1" ATSC 2021-ci ili 129 min 973 manat xalis mənfəət ilə başa vurub. Halbuki, şirkət 2020-ci ili 404 min 284 manat xalis zərər ilə bağlamışdı.

Rəsmi rəqəmlərə görə, "Bakı Şərab -1"in satışdan gəlirləri 2020-ci ildə 1 milyon 226 min 648 manat ikən, 2021-ci ildə 1 milyon 491 min 409 manata yüksəlib (265 min manat artıb).

Qeyd edək ki, zavoda iki il öncə "Aqrolizinq" ASC-nin sabiq rəhbəri Əli Bayramov təyin olunub. Abbasovun sadiq kadrı və yaxın adamı sayılan Bayramov həmin vəzifədə ikən ölkənin ən korrupsiyalaşmış məmurlarından biri sayılsa da "Bakı Şərab - 1" ATSC onun rəhbərliyi altında dirçəlməyə başlayıb.

Xatırladaq ki, 2004-2013-cü illərdə kənd təsərrüfatı naziri, 2013-2018-ci illərdə isə baş nazirin müavini işləyən Abbasovun qısa vaxtda böyük sərvətə sahib olması məhz "Aqrolizinq" ASC-nin 2009-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsindən sonra başlamışdı. Çünki bu ASC uzun illər boyu korrupsiya, dövlət vəsaitlərinin talandığı əsas qurumlardan birinə çevrilmiş, nəticədə eks-nazir də misilsiz var-dövlətə yiyələnmişdi.

İ.Abbasov nazir postunu itir-



dikdən sonra Bayramov da postundan uzaqlaşdırıldı. Köhnə dostlar, yuxarıda da qeyd etdiyimiz kimi, "Bakı şərab - 1"də yenidən birləşdilər. Onların bu zavodu dirçəltmək üçün birgə səylərinin artıq nəticə verməyə başladığı ötən ili mənfəətlə başa vurmasından görünür. Düzdür, mənfəətin məbləği elə də böyük deyil, ancaq belə görünür sabiq kənd təsərrüfatı naziri və keçmiş baş nazir müavini uzun aradan sonra müəssisəsini böhrandan çıxara bilib.

İndi isə Abbasova məxsus başqa bir şirkətlə bağlı məlumat yayılıb. Həmin məlumata görə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Tikilməkdə olan Müəssisələr Müdiriyyəti Bakı, Mingəçevir şəhərlərində və Abşeron rayonunda məcburi köçkünlərin məskunlaşdığı binalarda cari təmir işləri ilə bağlı satınalma müsabiqəsinə yekun vurub. Müsabiqənin qalibi isə "SS-İnşaat" MMC olub. Qurumla şirkət arasında maliyyə dəyəri 195 914.69 AZN təşkil edən satınalma müqaviləsi imzalanıb.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən, "SS-İnşaat" MMC 19 mart 2008-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 50 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Xətai rayonu, Həsən Salmanlı küçəsi, ev 5/7, mənzil 16-da yerləşir. MMC-nin qanuni təmsilçisi Qurbanov Fuad Sərxan oğludur.

Açıq mənbələrdə şirkət və onun qanuni təmsilçisi barədə heç bir məlumat yoxdur. 14 ildir fəaliyyət göstərməsinə baxmayaraq, "SS-İnşaat"ın nə veb-səhifəsinə, nə də əlaqə telefonlarına rast gəlmək mümkündür.

"SS-İnşaat" MMC dövlət satınalmalarında əsasən Heydər Əsədovun kənd təsərrüfatı naziri olduğu dövrdə bu nazirliyin keçirdiyi tenderlərin qalibi olub.

Mediada gedən məlumatlarda isə "SS-İnşaat" MMC-nin məhz başqa bir keçmiş kənd təsərrüfatı naziri - İsmət Abbasovun nəzarətində olduğu deyilir. Bu faktı dəqiqləşdirmək üçün nə şirkət, nə də eks-nazirlə əlaqə saxlamaq mümkün olub.

Beləliklə, Abbasovun şəxsi biznesini gücləndirməyə başladığı göz qabağındadır. Hərçənd, onun həm baş nazir müavini olarkən, həm də bu postu itirdikdən sonra diqqəti daha çox xaricdəki biznesinə yönəltdiyi bildirilirdi. Onun xüsusilə İngiltərə paytaxtı Londonda çoxsayda şirkətlər yaratdığı, həmin şirkətləri isə oğlu Yunis Abbasov vasitəsilə idarə etdiyi vurğulanırdı. Mediada deyilənləri təsdiq edən konkret sənədlər də yayılmışdı.

İndi isə belə məlum olur ki, İsmət müəllim ölkə daxilindəki biznesini də gücləndirmək, canlandırmaq istiqamətində səylə çalışır.

***Toğrul Əliyev***

# Odunla qızdırılan məktəblərin siyahısı hazırlandı

***"Bizdə ölkədə odunla qızdırılan məktəblərin konkret siyahısı var. Həmin siyahıya uyğun olaraq hər il dövlət proqramına əsasən müxtəlif sayda məktəblərin qazlaşdırılması və ya digər enerji mənbələri ilə qızdırılması istiqamətində işlər həyata keçirilir".***

"Unikal" xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsinin müdir müavini Orxan Abbasov deyib.

O, nazirliyinin hədəfinin odunla qızdırılan məktəblərin sayını ildən-ilə azaltmaq olduğunu bildirib. Şöbə müdirinin müavini söyləyib ki, bununla bağlı hər il müvafiq işlər görülür və buna uyğun olaraq çoxlu sayda məktəblər hər il qazla




qızdırılan mərkəzləşdirilmiş istilik sistemində qoşulur.

Nazirlik rəsmisi Azərbaycanda ümumtəhsil müəssisələrinin qızdırılması üçün hələ də odundan istifadənin səbəblərini açıqlayıb. Odunun ənənəvi yanacaq növü olduğunu bildirən O.Abbasov hazırda ölkədə bəzi məntəqələrin qazlaşdırılmadığını xatırladıb.

O, həmçinin deyib ki, hətta bəzi məntəqələrdə qaz olsa belə, mavi yanacağın mövcud təzyiqi məktəbin qızdırılmasına imkan vermir. Bundan əlavə, bəzi məktəblərin qəzalı vəziyyətdə olması, həmin təhsil ocaqlarının qazlaşdırılmasına maneə yaradır.

## 5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Fransa senatının qətnaməsi ictima və dövlət maraqlarımıza olan təhdiddir

## Diaspor İnformasiya Mərkəzinin rəhbəri: "Fransadakı Azərbaycan diasporunun fəaliyyət planı yenidən hazırlanmalıdır"



***Noyabrın 15-də Fransa Senatı Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qətnamə qəbul edib. Senat Fransa Konstitusiyasının 34-1-ci maddəsini rəhbər tutaraq Azərbaycana qarşı sanksiya tətbiq edilməsinə dair qanun layihəsini müzakirəyə çıxarıb və qəbul edib. İclasda iştirak edən 296 nəfərdən 295-i layihənin lehinə, 1 nəfər əleyhinə səs verib.***

Qətnamə layihəsində "Azərbaycanın Ermənistan ərazisindən və Laçın dəhlizindən çəkilməsi" tələb olunub. Layihə müəllifləri "Azərbaycan və onun tərəfdaşlarının Ermənistanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməsini, həmçinin bütün erməni hərbi əsirlərin qaytarılmasını" tələb edirlər. "Azərbaycan hökumətindən 4 yanvar 1969-cu il tarixli hər növ Diskriminasiyanı Qadağan edən Konvensiyaya uyğun olaraq erməni əhalisinin, erməni dini və mədəni mirasının mühafizəsi üçün tədbir görmək" tələb edilir. Bununla yanaşı, Fransa hökumətinə "Dağlıq Qarabağda humanitar büro açmaq" təklif edilir. Təkliflər arsında qondarma "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyinin tanınması da yer alır. Eyni zamanda, Fransa hökumətindən Qafqazda sülhün bərqərar olması üçün Azərbaycanla diplomatik prosesə başlamaq tələb olunur. Ermənistan-Azərbaycan sərhədində beynəlxalq statuslu sülhməramlı qüvvələrin yerləşdirilməsi də təkliflər arasında var.Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi bu qətnamə birmənalı qarşılanmayıb. İllərdir ki, Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən Fransa bu qətnamə ilə təkcə Azərbaycanla-Ermənistan arasında olan gərgin münasibətlərin normallaşmasına xələl gətirmədi, onların bu addımı ölkəmizin ərzi bütövlüyünə hörmətsizlik, dövlət maraqlarımıza təhdid kimi də qiymətləndirildi.

Fransa Senatının altı üzvü tərəfindən irəli sürülən, Azərbaycana qarşı qərəzli ittihamların yer aldığı, eləcə də Fransa və digər Aİ ölkələrini Azərbaycandan neft və qaz idxalına embarqo qoymağa çağıran ermənipərəst qətnamə layihəsinə etiraz olaraq aksiyalara başlanılıb. Bu günlərdə Türkiyənin Ankara şəhərində belə bir etiraz aksiyası baş tutdu. İctimaiət nümayəndələri diasporumuzun Fransa Senatının qərəzli qətnaməsinə qarşı etiraz aksiyalarının keçirilməsinin vacibliyini vurğulayırlar.

Diaspor İnformasiya Mərkəzinin rəhbəri Toğrul Allahverdi deyir ki, Fransanın bu qətnaməsi tamamilə beynəlxalq hüquqa ziddir. Çünki, Azərbaycanın ərazi bütövlüyü Fransa tərəfindən də tanınır. Fransa Senatı bu qətnaməsi ilə seperatçı mövqedən çıxış etdiyini sərgilədi. T. Allahverdi hesab edir ki, Fransa Senatı Azərbaycandan bu qətnaməyə görə, rəsmi şəkildə üzr istəməlidir. Fransa bununla Azərbaycana qarşı ərazi iddiası qaldırmış olur, eyni zamanda bölgədə seperatizm meyilliliyi yaradır. Fransanın fəaliyyəti dondurulmuş ATƏT-in Mins qrupunun üzvü kimi belə bir qətnamə qəbul etməsi işğal müddətində Azərbaycana qarşı ikili standart yürütdüyünün sübutudur.

O ki, qaldı Azərbaycan diasporunun bu qətnamədən sonra hansı addım atmasına, T. Allahverdi deyir ki, diasporumuz daha da fəallaşmalıdır: "İşğal dövründə diasporumuz çalışıb ki, Azərbaycan həqiqətlərini dünyaya çatdırsın ,torpaqlarımızın işğal altında olduğunu dünyaya car çəksin. Amma artıq biz torpaqlarımızı işğaldan azad etmişik. Ona görə də vəziyyət bir qədər dəyişib. Qarabağ Azərbaycanın ərazisidir, bu torpaqlarda artıq Azərbaycan qanunları işləyir. Son qətnamədən sonra Fransada fəaliyyət göstərən Azərbaycan diasporu daha güclü olmalıdır. Fransada yaşayan azərbaycanlılar, bizim oradakı diasporumuz dövlətçilik maraqlarından çıxış edərək daha aktiv olmalıdır. Diaspor işi bir könül işidir. Biz orada yaşayan soydaşlarımıza Azərbaycanın maraqlarını xarici ölkələrdə qoruduğu, buna vaxt, imkan etdikləri üçün təşəkkür edirik. Azərbaycan diasporu Vətən müharibəsində arxa cəbhənin qəhrəmanı oldu. Bununla belə Fransadakı Azərbaycan diasporunun fəaliyyət planı yenidən hazırlanmalıdır. Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı Fransada çox işlər görülüb. Diasporumuz nə qədər Fransada Azərbaycanın ictimai və dövlət maraqlarını müdafiə etməyə çalışsa da, çox təəssüf ki, fransızlarda sanki bir türk düşmənçiliyi var. Fransanın iqtidarı Ermənistanın ələtısına çevrilib. Yeni uğurlu strategiyamız olmalıdır. Həmçinin Fransa cəmiyyətinin qəbul etdiyi şəxslərlə işləməliyik".

Xatırladaq ki, Milli Məclisin dünən keçirilən plenar iclasında Fransa Senatının Azərbaycana qarşı qətnaməsi ilə bağlı bəyanat qəbul edilib. Bəyanatda bildirilir ki, Fransa Senatının hər iki palatasında qəbul edilən sənədlər Azərbaycan və Fransa arasında münasibətləri, o cümlədən 1993-cü ildə Fransa və Azərbaycan arasında imzalanan müqavilənin bəndlərini pozur. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət edilməlidir. Erməni qruplarının Azərbaycanın Fransadakı səfirliyinə qarşı faşist əməllərinin qarşısının alınmaması Fransanın Ermənistanı müdafiə etdiyini göstərir. 30 ildir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin səbəblərindən biri də Fransanın Ermənistanı müdafiə edərək, status-kvonu saxlamaq cəhdləri olub. Azərbaycanın guya Ermənistana qarşı hücumunun BMT Təhlükəsizlik Şurası tərəfindən qınandığını ifadə edən Fransa deputatları BMT Təhlükəsizlik Şurasında keçirilən iclasda əksər dövlətlərin iki dövlət arasında sərhədlərin delimitasiyasının həyata keçirilməsi ilə bağlı çağırışlarını görməzdən gəlir. Senat Fransanın BMT Təhlükəsizlik Şurasının üzvlüyündən öz çirkin əməlləri üçün istifadə etdiyini sübut edir. Qətnamədə Laçın dəhlizi ilə bağlı bənd bu qətnamə müəlliflərinin yerdəki vəziyyətdən nə qədər bixəbər olduğunu göstərir. Fransanın bu addımı Cənubi Qafqazda iki ölkə arasında bütün münasibətlərə zərbə vurur.

Həmçinin Azərbaycan XİN açıqlama yayaraq bildirib ki, bu qətnamə tamamilə həqiqətdən uzaqdır, yalan və iftira dolu müddəaları əks etdirir və açıq təxribat xarakteri daşımaqla Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinə xələl gətirilməsinə xidmət edir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Bakıda yeni radio yayıma başlayır

***Azərbaycan Respublikasının Audiovizual Şurasının ümumölkə yerüstü radio yayımı üçün elan etdiyi müsabiqənin qalibi olmuş Yurd FM radiosu, 18 noyabr 2022-ci il səhər saat 8-dən Bakı şəhərində yayıma başlayır.***

Yayımı eyni zamanda dünyanın istənilən ölkəsində internet üzərindən www.yurdfm.az saytına daxil olmaqla dinləmək mümkün olacaq. Yeni radio Bakı və Abşeronda 90.7 FM tezliyində fasiləsiz olaraq 24 saat yayımlanacaq.

2023-cü ilin birinci yarısından etibarən radio Azərbaycanın bölgələrində də yayıma başlamağı planlaşdırılır. Yurd FM radiosu, Azərbaycan xalq musiqisi, muğam, mahnı, təsnif, instrumental musiqi, aşıq musiqisi və milli rəqs musiqisi formatında fəaliyyət göstərəcək.

Bu əsərlər həm Azərbaycan musiqi korifeylərinin, həm də müasir sənətkarların ifasında dinləyici auditoriyasına təqdim olunacaq.

Radionun əsas məqsədi Azərbaycan xalq musiqi janrlarının gənc nəsil tərəfindən dinlənilməsi və sevilməsi işinə tövhə vermək, müasir xalq musiqi ifaçılarının yaradıcılığını radio efirində geniş təbliğ etməkdir.

# Azərbaycanda kibertəhlükəsizlik mərkəzi açılacaq

***Azərbaycanda İsrailin dəstəyi ilə kibertəhlükəsizlik mərkəzi açılacaq.***




"Unikal"ın məlumatına görə, bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev İnvestisiyalar və gənc sahibkarlıq forumunda deyib.

Onun sözlərinə görə, mərkəz yaxın zamanlarda fəaliyyətə başlayacaq.

"Kibertəhlükəsizlik mərkəzi İsrail universiteti ilə saziş əsasında yaradılır. İnformasiya texnologiyaları sahəsində reallaşdırdığımız vacib layihələrdən biri kibertəhlükəsizliklə bağlıdır. Bu layihə çərçivəsində həm ümumilikdə ölkənin, həm də kiçik və orta sahibkarlığın özəl subyektlərinin kibertəhlükəsizliyindən söhbət gedir", - nazir çıxışında qeyd edib.



# “AzInTelecom” yeni layihəyə start verir

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “AzInTelecom” MMC həssas əhali qrupuna aid olan vətəndaşların rəqəmsal xidmətlərə əlçatanlığının artırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) ilə birgə yeni layihəyə start verib.***

”Unikal” xəbər verir ki, layihənin məqsədi DOST mərkəzlərinə müraciət edən vətəndaşların “AzInTelecom” MMC-nin yaratdığı SİMA yeni nəsil rəqəmsal imza vasitəsilə heç yerə getmədən dövlət xidmətlərindən faydalanması istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir.

Layihə çərçivəsində ilk olaraq agentliyin “Könüllü DOST” proqramının seçilmiş iştirakçılarına “AzInTelecom” MMC-nin mütəxəssisləri təlim keçiblər.

Təlimi uğurla bitirən könüllülər DOST mərkəzlərinə gələn həssas əhali qrupuna aid vətəndaşlara SİMA və onun vasitəsilə əldə edəcəkləri xidmətlər haqda məlumat verəcəklər. Həmçinin SİMA tətbiqinin mobil cihaza yüklənilməsi və qeydiyyatdan keçərək rəqəmsal imzanın əldə edilməsində dəstək olacaqlar.

Qeyd edək ki, hazırda 12-si dövlət qurumu olmaqla, ümumilikdə 70-dən çox müəssisənin SİMA yeni nəsil rəqəmsal imza ilə inteqrasiyası davam etdirilir.

# "Taxıl sazişi"nin müddəti uzadılır

***”Taxıl sazişi”nin müddəti uzadılır. ”Unikal” xəbər verir ki, bu barədə Ukraynanın infrastruktur naziri Oleksandr Kubrakov deyib.***

Onun sözlərinə görə, ”Taxıl sazişi”nin müddəti daha 120 gün uzadılacaq.

“Ukrayna Prezidenti Vladimir Zelenski, BMT Baş katibi Antonio Qutierreş, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkiyənin müdafiə naziri Hulusi Akar birlikdə ərzaq böhranına qarşı qlobal mübarizədə başqa bir vacib addım atdılar. Təşəbbüsün müddətini 1 il daha uzatmaq və Nikolayev limanını da bura daxil etmək təklifi ilə tərəfdaşlara rəsmi müraciət etdik. Birgə Koordinasiya Mərkəzinin səmərəli fəaliyyətini təmin etmək də vacibdir. Mövcud problemlərin həlli ilə bağlı təkliflərimizi veririk”, nazir deyib.

Qeyd edək ki, ”Taxıl sazişi”nin müddəti noyabrın 19-da bitir.

# Bu avtobusların hərəkət istiqaməti dəyişdirildi

***Bakıda Xaqani küçəsi ilə Puşkin küçəsinin kəsişməsində aparılan təmir işləri ilə əlaqədar nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət qoyulub.***

”Unikal”a Bakı Nəqliyyat Agentliyinə istinadən xəbər verir ki, bu səbəbdən də həmin ərazidən keçən 1, 2, 4, 46 nömrəli müntəzəm və H1 ekspres marşrut xətləri üzrə avtobusların hərəkət sxemi müvəqqəti olaraq dəyişdirilib.

Avtobuslar Üzeyir Hacıbəyov küçəsi istiqamətində alternativ yollarla hərəkət edirlər.

# 2022-ci ilin ötən dövründə Abşeron rayonunun “Sosial-iqtisadi inkişafı” haqqında rəqəmlər

***Ölkəmizin iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur ki, bu mərhələdə də əsas məqsədlərdən biri uzunmüddətli perspektiv və ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir.***



Bunun üçün dövlətin qarşıya qoyduğu regionların sosial-iqtisadi inkişaf siyasəti regional inkişafın, ölkəmizin bu sahədə uğurlu və dinamik tərəqqi yolunun təminatıdır. Dövlət başçısının bu yolda yeritdiyi məqsədyönlü siyasəti nəticəsində ölkənin bütün regionlarında, o cümlədən Abşeron rayonunda da iqtisadiyyatın yüksəlməsi ilə müşahidə olunub. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən doqquz ay ərzində 522.8 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bunun nəticəsində də sənaye istehsalı indeksi177.1 faiz olmuşdur. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 457.0 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 87.4 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 26.5 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, Abşeron rayonunun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 16.1 milyon manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 54.4 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 57.0 faizi qeyri-dövlət sektorunun payına düşür.

Hesabat dövründə rayonda 77.2 milyon manatlıq investisiya qoyuluşu olmuşdur. Bu investisiyanın 68.9 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İlin yanvar-sentyabr ayları ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 504.7 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 23.8 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 86.8 milyon manat olmuşdur ki, bunun da 49.6 milyon manatı dövlət, 37.2 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2022-si ilin yanvar-sentyabr aylarında 200.4 hektar sahədən 267.7 ton payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin yığımı olmuşdur.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2022-ci il oktyabr ayının 1-i vəziyyətinə 21579 baş iribuynuzlu mal-qara, o cümlədən 13983 baş inək və camış, 103192 baş isə qoyun və keçi mövcud olmuşdur. Cari ildə təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 4654 ton ət, 28170 ton süd istehsal edilmişdir.

2022-ci il sentyabr ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 37951 nəfər olmuş, bundan 13406 nəfəri dövlət, 24545 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 191739.7 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 631.5 manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 13.1 faiz, orta aylıq əməkhaqqı isə 10.6 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Hüseyn***

# Bu tarixlərdə həftəsonu yarmarkaları təşkil olunacaq

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 19-20 noyabr tarixlərində “Kənddən Şəhərə” həftəsonu yarmarkaları təşkil olunacaq.***



”Unikal” xəbər verir ki, Bakı və Abşeron ərazisində keçiriləcək yarmarkaların təşkilində əsas məqsəd fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini yerli, təbii və mövsümi kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Yarmarkalarda məhsullar birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq.

Budəfəki “Kənddən Şəhərə” həftəsonu yarmarkalarında ümumilikdə 80-ə yaxın fermer 50-ə yaxın regionu təmsil edəcək. Fermerlər 90-a yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstəriləək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara daşınacaq.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

“Kənddən şəhərə” həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının çıxışı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# Qəhrəmanın bulaq ömrü



***Azərbaycanın qeyrətli oğulları İkinci Qarabağ müharibəsində misilsiz qəhrəmanlıq nümunəsi göstərərək qanları bahasına 30 il düşmən əsarətində qalan əzəli Vətən torpaqlarını 44 günə azad etdilər. Öz şirin canını qurban verib xalqa qələbə sevincini yaşadan minlərlə igidlərdən biri də Lerik rayonunu Hovil kəndində dünyaya göz açan İmaməli Elman oğlu İbrahimovdur. İmaməli 25 yaşında Vətən, torpaq uğrunda şəhid olaraq milyonların ürəyində özünə əzəmətli, əbədi abidə ucaltdı. Bu qısa ömür bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrildi.***

İmaməli İbrahimovun doğma kəndində böyük də, kiçik də həmişə, hər yerdə adını uca tuturlar, onunla qürur duyurlar. Kənddə Vətən müharibəsinin şəhidi, elin qəhrəman oğlunun xatirəsinə bulaq kompleksi də inşa olunub. Bu günlər onun açılış mərasiminə qatılan insanların sayı bilinmirdi. Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov və şəhidin babası Dadaş İbrahimov tərəfindən bulaq kompleksinin üzərindən örtük götürüldü və önünə gül-çiçək dəstələri düzüldü.

Çıxışlarda İmaməli İbrahimovun Vətən sevgisindən, onun döyüşlərdə göstərdiyi qəhrəmanlıqdan fəxrlə danışıldı. İcra başçısı Ə. Abbasov şəhid ailələrini və kənd sakinlərini salamlayıb abidə kompleksinin tikintisində dəstək göstərən hər kəsə minnətdarlığını söylədi, daha sonra bildirdi ki, Azərbaycanımızın bütövlüyü naminə, Vətən torpaqların azadlığı uğrunda şəhid olmuş hər bir qəhrəmanın xatirəsi daim əziz tutulur, onların adının əbədi yaşaması üçün dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir, eləcə şəhid ailələri hər zaman diqqət mərkəzində saxlanılır. Bu günlərdə Vətən müharibəsində qazandığımız Şanlı Qələbənin təcəssümü olan Zəfər Gününün ikinci ildönümünü dünya azərbaycanlıları iftixarla qeyd etdilər. Vətən müharibəsinin 44 günü ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan ordusu işğal altındakı torpaqları azad etməklə xalqımızın qüdrətini bir daha bütün dünyaya bildirildi. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsi həmişə ehtiramla xatırlanar. Lerikin qəhrəman oğlu İmaməli də onların içində olmaqla..

Şəhidin babası Dadaş İbrahimov çıxış edərək şəhid ailələrinə, müharibə veteranlarına göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlığını səmimi ürək sözləri ilə söylədi. Onu da vurğuladı ki, nəvəsi İmaməli az yaşasa da, layiqli bir övlad kimi Vətən qarşısında son borcunu şərəflə verib. Onun şəhidliyi Vətəninə, millətinə başucalığı gətiribdir. Həm də dövlət tərəfində ölümündən sonra layiq görüldüyü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və digər medalları bizə təsəllidir.

Qılıqlov kənd ümumi orta məktəbi şagirdlərinin ifasında səslənən kompozisiya da şəhidlərə həsr olunmuşdu.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Rayonlarda subartezin quyuları vasitəsilə suvarma həyata keçirilir

***Ağcabədidə subartezin quyuları vasitəsilə 27 min hektar sahə suvarılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ağcabədi rayonunda əkin sahələrinin suvarma suyu ilə təmin olunması istiqamətində son illər xeyli işlər görülüb.***

Ağcabədi Suvarma Sistemləri İdarəsi tərəfindən subartezian quyuların təmiri və bərpası daim ön planda saxlanılır. Rayonda 27 min hektara yaxın əkin sahəsinin suvarılmasını təmin edən 1026 ədəd subartezian quyusuna hər il baxış keçirilir, nasazlıqlar aşkar olunduqda aradan qaldırılır. Ötən əsrin 70-ci illərində istifadəyə verilən və uzun müddət istismar olunaraq batan 111 ədəd subartezian quyusunun 35 ədədi son illər bərpa olunub. 2024-cü ilə qədər bütün quyular bərpa olunaraq su istifadəçilərinin istifadəsinə veriləcək. Hazırda həmin quyulardan birində bərpa işləri aparılır.



Quyuların bərpası, o cümlədən yeni subartezian quyularının qazılaraq sakinlərin və fermerlərin istifadəsinə verilməsi əkin aparılan torpaqlardan bol məhsul əldə olunmasına səbəb olur. Fermerlər subartezian quyuları hesabına sahələrini asanlıqla suvara bildiklərini qeyd edirlər.

Ağcabədi Suvarma Sistemləri İdarəsinin balansında olan subartezian quyuları vasitəsilə 2021-ci ildə 3000 ha pambıq sahəsi 5 dəfə, 6200 ha taxıl sahəsi 4 dəfə, 14000 ha yonca sahəsi 6 dəfə, 3455 ha digər kənd təsərrüfatı bitgiləri 4,0-4,5 dəfə suvarma suyu ilə təmin olunub. 2022-ci ilin 9 ayında 4450 ha pambıq sahəsi 3,5 dəfə, 6960 ha taxıl sahəsi 4 dəfə, 11170 ha yonca sahəsi 4,5 dəfə, 4130 ha digər kənd təsərrüfatı bitgiləri 3,0-3,5 dəfə suvarılıb. Suvarılmanın mütəşəkkil aparılması üçün növbəti illərdə də yeni subartezian quyularının qazılması nəzərdə tutulur.

Qeyd edək ki, Ağcabədi rayonunda hər il pambıq, taxıl, yonca və digər kənd təsərrüfatı bitkiləri əkilir və suvarılması tam olaraq həyata keçirilir. Suvarılan sahələrdən isə yığım vaxtı bol məhsul əldə edilir.

***Hüseyn***



# Polis 16 yaşlı qızın nişanlanması ilə bağlı valideynlərinə xəbərdarlıq etdi

***Kürdəmir Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları 16 yaşlı qızın nişanlanması ilə bağlı valideynlərinə xəbərdarlıq edib.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şirvan regional qrupunun baş inspektoru polis kapitanı Nizam Həmidov "Unikal"a bildirib ki, faktla bağlı Kürdəmir RPŞ-nin əməkdaşları tərəfindən bütün tədbirlər icra olunur.

"Polis əməkdaşları məktəblinin valideynləri ilə izahedici söhbətlər aparıblar və qeyd olunan halın hüquqazidd olması onların diqqətinə çatdırılıb. Araşdırmalar zamanı qızın 16 yaşının tamam olması məlum olub. Valideynləri isə ailə daxilində kiçik bir mərasimin keçirildiyini səmimi etiraf edərək, övladlarının hal-hazırda onlarla birlikdə yaşadığını, yalnız 18 yaşı tamam olduqdan sonra oğlan toyunun keçiriləcəyi bildiriblər", - DİN rəsmisi vurğulayıb.

Xatırladaq ki, noyabrın 16-da Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə sosial şəbəkədə Kürdəmirdə məktəbli qızın nişanlanması ilə bağlı paylaşım etmişdi.

# Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 7 nəfər saxlanıldı

***Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının son bir neçə gün ərzində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən ümumilikdə 7 nəfər saxlanılaraq məsuliyyətə cəlb ediliblər.***



DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Ağcabədi RPŞ-nin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri ilə Hindarx qəsəbəsində yaşayan Anar Mamedov saxlanılıb. Üzərində aparılan şəxsi baxış zamanı ondan təmiz çəkisi 415 qram olan güclü təsiredici xassəyə malik heroin aşkar edilərək götürülüb. Bundan əlavə rayonun Hindarx qəsəbəsində və digər ərazilərində aparılan ardıcıl tədbirlər nəticəsində daha 6 nəfər saxlanılıb. Onlardan ümümi çəkisi 1 kiloqrama yaxın müxtəlif adda narkotik vasitələr aşkar olunaraq götürülüb. Qeyd edilən faktlarla bağlı Ağcabədi RPŞ-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılaraq zəruri istintaq hərəkətləri davam etdirilir.

# Abşeronda kişi arvadını qətlə yetirdi

***Abşeronda qadın qətlə yetirilib, əri saxlanılıb. Bu barədə "Unikal"a Abşeron rayon prokurorluğundan məlumat verilib.***

Noyabrın 16-sı Abşeron rayonu ərazisində 1994-cü il təvəllüdlü Əfsanə Nuruyevanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılmış araşdırmalarla zərərçəkmişin əri, 1992-ci il təvəllüdlü Səadətdin Nuriyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı bıçaqla xəsarət yetirərək Əfsanə Nuruyevanı qəsdən öldürərək hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Səadətdin Nuriyevin olduğu yer müəyyən edilməklə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İş üzrə istintaq davam edir.

## Rus kəşfiyyatçı Ukraynada ələ keçirildi




***Ukrayna Təhlükəsizlik Xidmətinin əks-kəşfiyyat əməkdaşları Vinnitsa vilayətində Rusiya hərbi kəşfiyyatçısını saxlayıb.***

"Unikal" Ukrayna KİV-lərinə istinadən xəbər verir ki, agent Müdafiə Qüvvələrinin bölmələri və enerji obyektlərinin yerləşdiyi yerlər barədə ruslara məlumat ötürürmüş.

Saxlanılan şəxs 1990-cı illərin əvvəllərində ordudan təqaüdə çıxıb, sonra isə onun Vinnitsa vilayətində yaşayan keçmiş sovet hərbçisi olduğu üzə çıxıb.

***Ağarza***

## Müharibəyə görə Rusiya yüzlərlə agentini itirdi



***"Rusiya Federasiyasının Ukraynaya qarşı müharibəsi zamanı xaricdəki rus kəşfiyyat şəbəkəsinə müasir tarixdə ən güclü zərbə vuruldu".***

"Unikal" BBC-yə istinadən xəbər verir ki, bunu Britaniyanın Mİ-5 əks-kəşfiyyatının rəhbəri Ken Makkallum deyib

Böyük Britaniyanın üzləşdiyi təhdidlərə dair illik hesabatında əks-kəşfiyyat rəhbəri bütün dünyada Rusiya səfirliyinin 600-dən çox əməkdaşının ölkədən çıxarıldığını, onlardan 400-dən çoxunun casus olma ehtimalının olduğunu bildirib.

"Bu, Avropanın yaxın tarixində Rusiya kəşfiyyatına ən güclü strateji zərbə oldu", - Makkallum qeyd edib.

Mİ-5 rəhbəri bildirib ki, diplomatik pərdə altında işləyən 23 rusiyalı kəşfiyyatçı təkcə Böyük Britaniyadan qovulub.

***Gülayə Mecid***

## "ABŞ Azərbaycan və Ermənistana texniki yardım təklif edib" - Riker



***ABŞ Azərbaycan və Ermənistana sərhədin demarkasiyasından tutmuş nəqliyyat marşrutunun planlaşdırılmasına qədər texniki yardım təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ dövlət katibinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker ABŞ Senatının Xarici Əlaqələr Komitəsində müzakirələr zamanı danışıb.

O, İrəvanla Bakı arasında mümkün sülh müqaviləsi mövzusuna toxunub: "Hər hansı sülh danışıqlarında olduğu kimi, bunlar tarixin qat-qatları ilə mürəkkəbləşən məsələlərə diqqət yetirən mürəkkəb müzakirələrdir. Lakin cari müzakirələrin tempi və dərinliyi onilliklərlə davam edən münaqişəyə son qoyacaq nizamlanma üçün aydın potensiala işarə edir".

***Ağarza Elçinoğlu***

## Çin prezidenti Rusiyaya gedə bilər



***Çin prezidenti Si Cinpin gələn il Rusiyaya gedə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın Çindəki səfiri İqor Morqulov bildirib.

Diplomatın sözlərinə görə, Rusiya və Çin arasında münasibətlərdə ilin əsas hadisəsi Rusiya lideri Vladimir Putinin Pekinə "Olimpiya" səfəri olub və bu səfər zamanı o, COVID-19 pandemiyasının başlanmasından bəri ilk dəfə Si Cinpinlə görüşüb. Sentyabrda dövlət başçıları Səmərqənddə ŞƏT sammiti çərçivəsində danışıqlar aparıblar.

Morqulov qeyd edib ki, siyasətçilər mütəmadi olaraq mesaj mübadiləsi aparır, telefon və video zənglər vasitəsilə əlaqə saxlayırlar.

***A.Elçinoğlu***

## "Ən qısa zamanda F-16 məsələsini həll edə bilərik" - Ərdoğan



***"İnşallah, ən qısa zamanda F-16 məsələsini həll edə bilərik".***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu mövzuda təmaslar davam edir: "Xarici işlər, müdafiə nazirlərimiz də prosesi yaxından izləyirlər".

Ərdoğan həmçinin ABŞ Prezidenti Cozef Baydenlə görüş barədə danışıb: "Bayden "Taxıl razılığı" ilə bağlı bizə təşəkkür etdi".

## İstanbulda terror törədən şəxs əmri kimdən aldığını açıqladı

***Türkiyənin İstanbul şəhərində bombalı hücum həyata keçirən qadın terrorçu Əhlam Əlbəşir və digər şübhəlilər tibbi müayinədən keçirildikdən sonra ədliyyəyə aparılıblar.***

"Unikal" xəbər verir ki, terrorçu polisə verdiyi ifadəsində təşkilatla ilk təması haqda danışıb.

Onun PKK/YPG silahlı terror təşkilatının üzvü olduğu üzə çıxıb. O, terror təşkilatı ilə sevdiyi adam vasitəsilə tanış olduğunu bildirib: "YPG ilə 2017-ci ildə Mənbicdə tanış oldum. Əhməd A. adlı bir adamla tanış oldum, onun YPG üzvü olduğunu öyrəndiyim. Sonra mən də onun ardınca getdim. Burada təşkilat məni cəlb etməyə çalışdı, tapşırıqlar verdi. Bir müddət sonra Əhmədin izini itirdim, amma təşkilatla münasibətim kəsilmədi. Onlar da məni tərk etmədilər".

***Ağarza***




## İran həbsxanasında Azərbaycanın dövlət bayrağına görə dava düşdü

***İranın Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbriz şəhərindəki həbsxanada Azərbaycan Respublikasının dövlət bayrağına görə baş verən davada güney azərbaycanlı milli fəal yaralanıb.***

"Unikal" İran mətbuatına istinadən xəbər verir ki, tanınmış idmançı və ictimai fəal Kərim İsmayılzadəyə təzyiq etmək üçün onu ağır cinayətlər törətmiş



məhkumlarla bir kameraya köçürüblər.

Məlumata görə, həbsxanada üç məhbus Azərbaycan bayrağını təhqir etdikdən sonra Kərim İsmayılzadəyə hücum çəkiblər. Məcburi davaya cəlb olunan milli fəal hücum edənlərdən ikisinə müqavimət göstərib, üçüncü isə qaçıb.

Bundan sonra xüsusi təyinatlı dəstə hadisə yerinə gəlib. Yaralanan Kərim İsmayılzadə həbsxananın tibb məntəqəsinə aparıldıqdan sonra xüsusi bölməyə köçürülüb.

## Gerasimov amerikalı generalın zəngini açmadı

***ABŞ Ordusunun Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Mark Milley rusiyalı həmkarı, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla danışmağa cəhd etsə də, buna nail ola bilməyib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, amerikalı general Gerasimovla Polşanın şərqində raketin düşməsi nəticədə iki nəfərin həlak olması ilə bağlı insidenti müzakirə etmək istəyib.

Onun sözlərinə görə, çərşənbə axşamı o, Ukrayna və Polşadakı həmkarları ilə bir neçə dəfə telefon danışığı aparıb, lakin rusiyalı həmkarı onun zənglərini açmayıb.

Xarici KİV-də yer alan xəbərlərə görə, Gerasimov son həftələr Rusiya media məkanından demək olar ki, tamamilə yox olub, bu, Ukraynada hadisələrin inkişafından Kremldə narazılıqla bağlıdır.

Xatırladaq ki, noyabrın 15 - də Polşanın sərhəd kəndinə raket düşüb, nəticədə iki nəfər həlak olub.

***Gülayə Mecid***



# Neymar: “Messiyə dedim ki, çempion olacam”

***Braziliya millisinin futbolçusu Neymarın PSJ-dəki komanda yoldaşları Lionel Messi və Kilian Mbappe ilə DÇ-2022 barədə söhbətinin təfərrüatı bəlli olub.***

Apasport.az saytının məlumatına görə, bunu “pentakampeonlar”ın ulduzunun özü açıqlayıb.

O bildirib ki, komanda yoldaşlarına Qətərdəki çempionluğun kimin olacağını deyib: “Dünya çempionu olmaq mənim ən böyük xəyalımdır. Bu, mənim futbolun nə olduğunu dərk etdiyim vaxtdan belədir. İndi mənim bu mükafatı qazanmaq üçün daha bir şansım var. Ümid edirəm ki, hər şey alınacaq. Messi və Mbappe ilə xüsusi müzakirələr aparmamışıq. Amma finalda qarşılaşa biləcəyimiz barədə zarafatlarımız olub. Messiyə dedim ki, ona qalib gəlib çempion olacam. Sonra da gülüşdük. Messi və Mbappe ilə oynamaq zövq verir. Onlardan iki böyük oyunçudur. Messi artıq çoxdan dünyanın ən yaxşısı sayılır. Mbappe isə inkişaf edən və potensialını göstərən gənc futbolçudur. Amma hələ çox artıra bilər”.



Qeyd edək ki, DÇ-2022-yə noyabrın 20-də start veriləcək.

# Şəhriyar Karlsenə uduzdu

***Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov ”Meltwater Champions Chess Tour” seriyasının doqquzuncu - sonuncu mərhələsində 3-cü tur oyununa çıxıb.***

Qrossmeyster norveçli dünya çempionu Maqnus Karlsenlə qarşılaşıb. Matçın ilk üç partiyasında millimizin üzvü uduzduğu üçün 4-cü partiyaya ehtiyac olmatıb.

Ş.Məmmədyarov 3 xalla turnir cədvəlinin 5-ci pilləsində qərarlaşıb.

Qeyd edək ki, turnir noyabrın 20-də başa çatacaq. Yarışın mükafat fondu 210 000 ABŞ dollarıdır. Şəhriyar Məmmədyarov ”Meltwater Champions Chess Tour” seriyasının səkkizinci mərhələsi olan “Aimchess Rapid”də ikinci yeri tutub.



# Emin Mahmudov dünya çempionatında favoritini açıqladı

***“Dünya çempionatında favoritlərim Braziliya və Argentina yığmalarıdır”.***

Bunu apasport.az saytına açıqlamasında Azərbaycan millisinin və “Neftçi”nin kapitanı Emin Mahmudov Qətərdə keçiriləcək dünya çempionatı ilə bağlı danışarkən deyib.

30 yaşlı yarımmüdafiəçi iki komandadan birinin mundialın qalibi olmasını arzulayır: “Uşaqlıqdan Braziliya azarkeşi olmuşam. Onlardan növbəti çempionluq gözləyirəm. Portuqaliyanın da çempionluğu pis olmaz. Kriştiano Ronaldoya görə onların kubok qazanmalarını istəyərəm”.



Mahmudov DÇ-2022-nin ilk dəfə mövsümün gedişində baş tutmasının ciddi təsirlərinin olacağını düşünür: “Dünya çempionatının mövsümün gedişində keçirilməsinin mütləq təsiri olacaq. Çoxlu zədələr ola bilər. Çünki oyunlar tez-tez keçirilə bilər. Futbolçular buna görə problemlə üzləşə bilərlər. İstənilən halda dünya çempionatıdır, ora gedən bütün oyunçular meydanda ürəklə döyüşəcək”.

Qeyd edək ki, noyabrın 20-də start götürəcək dünya çempionatı dekabrın 18-dək davam edəcək.

# "Azərbaycan layiqli qələbə qazandı" - Sergey Kleşenko

***”Birinci hissədə oyunumuz alınmadı. Daim gecikirdik və top uğrunda mübarizələrdə uduzurduq. İkinci hissədə oyun həm qarşılıqlı anlaşma, həm də dinamika baxımından bir qədər dəyişdi. İkinci hissədən daha çox razıyıq, amma oyun iki hissədir. Təəssüf ki, Azərbaycan millisi bu matçda qalib gəldi. Məncə, onlar qələbəyə layiq idilər”.***

Qol.az xəbər verir ki, bu sözləri Moldova millisinin baş məşqçisi Sergey Kleşenko millimizə 1:2 hesabı ilə uduzduqları yoxlama oyunundan sonra keçirilən mətbuat konfransında deyib.

”Bu gün heyətdə çoxlu gənc futbolçu vardı. Onlar üçün hələ çətindir. Çünki gənc olmaqla yanaşı, klublarında az oynayırlarr. Bu yaşda daimi oynamadınsa, çətinliklər olur. Amma biz vəziyyətin düzələcəyinə, onların klublarında daha çox forma şansı əldə edəcəyinə ümid bəsləyirik. Bu, bütün futbolçularımıza aiddir. Təbii ki, oyunumuzu daha da yaxşılaşdırmalıyıq. Bu oyunçulara şans verməyə davam edəcəyik. Amma təcrübəli oyunçulara da ehtiyac var. Nə qədər riskli olsa da, gələcək naminə gənc futbolçulara üstünlük vermək məcburiyyətindəyik. Çünki qarşıda bizi daha ciddi və rəsmi oyunlar gözləyir” - deyə o bildirib.



S.Kleşenko Azərbaycan millisinin də əvəzetmələr etdiyini xatırladıb: ”Meydana özlərini göstərməli olan gənc futbolçular buraxıldı. Gənc oyunçularımın istəkli olması oyunumuzun daha da yaxşılaşmasına səbəb oldu”.



# Ronaldonun posteri "Mançester Yunayted"dən söküldü

***İngiltərə Premyer Liqa təmsilçisi ”Mançester Yunayted” futbol klubu ona stadionun qarşısında yerləşdirilən Kriştiano Ronaldonun plakatını götürüb.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, klub buna səbəb kimi Portuqaliyalı ulduzu xəyanətdə ittiham edib.

Məlumatda deyilir ki, ”Mançester Yunayted” və hollandiyalı baş məşqçi Erik ten Haqın ünvanına edilən ağır tənqidlərə görə, 37 yaşlı futbolçunun posteri sökülüb.

*Ağarza Elçinoğlu*

# Maradonanın bu topu 2 milyona satıldı

***Argentinalı futbolçu Dieqo Maradonanın 1986-cı il Dünya Çempionatının 1/4 finalında İngiltərə ilə oyunda iki qol vurmaq üçün istifadə etdiyi futbol topu hərracda 2 milyon funta (2,4 milyon dollar) satılıb.***



”Unikal” BBC-yə istinadən xəbər verir ki, topun başlanğıc qiyməti 570.000 avro olub. Topun kim tərəfindən aldığı qeyd edilməyib.

Qeyd edək ki, bu top 1986-cı il iyunun 22-də Meksikada keçirilən dünya çempionatının 1/4 finalında Argentinanın İngiltərəni 2:1 hesabı ilə məğlub etdiyi oyunda istifadə olunub.

# DÇ-2022 üçün heyətə çağırılmayan ulduz futbolçular



***Goal.com nəşri noyabrın 20-dən dekabrın 18-dək Qətərdə keçiriləcək DÇ-2022 öncəsi mundial üçün yığma komandalara dəvət almayan ulduz futbolçuların siyahısını hazırlayıb.***

Qol.az həmin siyahını təqdim edir:

Fikayo Tomori (müdafiəçi) - İngiltərə, ”Milan”
Ceydon Sanço (hücumçu) - İngiltərə, ”Mançester Yunayted”
Serxio Ramos (müdafiəçi) - İspaniya, PSJ
Ferlan Mendi (müdafiəçi) - Fransa, ”Real”
Qabriel Maqalhaes (müdafiəçi) - Braziliya, ”Arsenal”
Mats Hummels (müdafiəçi) - Almaniya, ”Borussiya” Dortmund
Roberto Firmino (hücumçu) - Braziliya, ”Liverpul”
Rayan Qravenberx (yarımmüdafiəçi) - Niderland, ”Bavariya”
David de Xea (qapıçı) - İspaniya, ”Mançester Yunayted”
Tiaqo Alkantara (yarımmüdafiəçi) - İspaniya, ”Liverpul”
Tommi Abraham (hücumçu) - İngiltərə, ”Roma”

# U-21 yığmamız Macarıstana qarşı

***Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışında olan 21 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası bu gün yoxlama oyunu keçirəcək.***

“Unikal” xəbər verir ki, yığma macarıstanlı yaşıdları ilə qarşılaşacaq.

Görüş Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

Yoxlama oyunu

19:00. Azərbaycan U-21 - Macarıstan U-21